**DİQQƏT!**

**SƏS QƏZETİNDƏN NÖVBƏTİ YENİLİK!**

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 178 (6142) 9 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## İlham Əliyev: "Bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, bu münaqişə çoxdan çözülərdi"



*Bizdə S-300 hava hücumuna qarşı qurğular var, biz onları Rusiyadan almışıq. Rusiyadan bir çox silahlar almışıq. Burada heç bir məhdudiyyət yoxdur. Yalnız fərq ondadır ki, biz bunu pulla alırıq və bu da çox bahalı sistemlərdir. Ermənistan isə bir çox hallarda pulsuz alır. Yəni, hədiyyə kimi, ya da ki, kredit şəklində alır. Amma o kredit kağız üzərində qalır, qaytarılmır.*

Bax 2

### Avropa Parlamentinin deputatı erməni qoşunlarının Azərbaycandan çıxarılmasını tələb edib

*Avropa Parlamentinin Macarıstandan olan deputatı Marton Döndöşi plenar iclasda çıxış edərək, Ermənistanı işğalçı qoşunlarını Azərbaycandan çıxarmağa çağırıb. AZƏRTAC xəbər verir ki, Döndöşinin fikrincə, "müharibəni kim başlayıb" sualına cavab tapmaq üçün müasir günlərə yox, 30 il...*



Bax 2

### Hikmət Hacıyev: "Erməni əsilli Fransa vətəndaşları Qarabağda döyüşür"

*"Jurnalistin reportajı onu göstərir ki, əsilən erməni olan Fransa vətəndaşları Ermənistan silahlı qüvvələrinin sıralarında muzdlu yaraqlı olaraq Azərbaycan hərbçiləri və dinc sakinlərinə hücum edirlər". SİA-nın məlumatına görə, bunu...*




Bax 3

Erməni hərbi əsir Paşinyanı söydü:

## "Hamısını Nikol etdi"



*Azərbaycan Ordusunun bölmələri tərəfindən Qarabağda əsir götürülən erməni hərbçilərin fotolarını paylaşılıb. Həmin əsirlərdən birinin isə videosu da yayılıb. Erməni əsir videoda Ermənistanın baş naziri Nikol Paşinyanı ifşa edən sözlər deyib. Həmin videonu və videoda ermənin söylədiklərinin qısa tərcüməsini...*

Bax 12

### Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə videokonfransı keçirilib

*Oktyabrın 8-də Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) birgə videokonfransı keçirilib. Videokonfransı giriş sözü ilə açan Azərbaycan Respublikası Baş nazirinin...*



Bax 4

### "Bu gün Azərbaycanda vahid güc reallığı Ali Baş Komandan, Ordu, Xalq mütəşəkkiliyində birləşib"

*Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyevin SİA-ya müsahibəsi...*



Bax 5

**Vüqar Rəhimzadə: "Milli birlik və həmrəylik Azərbaycanın bugünküsiyasi palitrasının reallığıdır"**



Bax 6

**Bəhruz Quliyev: "Könüllülərin sayının artması dövlət başçısına inamın nəticəsidir"**



Bax 6

**Ermənistan iqtisadi və hərbi tənəzzülə uğrayır**



# İlham Əliyev: "Bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, bu münaqişə çoxdan çözülərdi"



***Bizdə S-300 hava hücumuna qarşı qurğular var, biz onları Rusiyadan almışıq. Rusiyadan bir çox silahlar almışıq. Burada heç bir məhdudiyyət yoxdur. Yalnız fərq ondadır ki, biz bunu pulla alırıq və bu da çox bahalı sistemlərdir. Ermənistan isə bir çox hallarda pulsuz alır. Yəni, hədiyyə kimi, ya da ki, kredit şəklində alır. Amma o kredit kağız üzərində qalır, qaytarılmır.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə CNN-Türk televiziyasına müsahibəsində bildirib.

Dövlətimizin başçısı deyib: "Təbii ki, bu bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, Ermənistanın buna sahib olması müzakirə mövzusu ola bilməzdi və b+u münaqişə çoxdan çözülərdi. Çünki Ermənistanın silahlanması və pulsuz silahlanması onlarda bir əminlik yaratdı ki, bu torpaqları işğal altında əbədi saxlaya bilərlər. Yəni, fərq bundadır. Ancaq bizim imkanımız var ki, Rusiyadan silahlar alaq. Biz başqa ölkələrdən də silahlar alırıq. Bu məsələ ilə bağlı hər hansı bir məhdudiyyət yoxdur".

Prezident qeyd edib ki, indi silah bazarı daha çox şaxələnib, coğrafiyası genişlənib. Bu gün Türkiyənin müdafiə sənayesi çox sürətlə inkişaf edir və gələcəkdə bizim Türkiyə silahları ilə təchizatımız daha da yüksək səviyyəyə qalxacaq.



Ilham Aliyev responds to accusations of attracting mercenaries to Karabakh

7 October, 2020 18:06

"Paris has failed to provide evidence of the deployment of mercenaries in Nagorno-Karabakh," said Azerbaijani President Ilham Aliyev in an interview with CNN Turk.

Earlier, French President Emmanuel Macron said Paris had information that mercenaries had arrived from Syria to take part in hostilities in Karabakh.

**"Ten days have passed, but we have not received any evidence from France,"** Aliyev said.

# Gürcüstan KİV-ləri Prezidentin çıxışlarına böyük maraq göstərir

***Gürcüstanın aparıcı report.ge, pia.ge, 24news.ge, aktual.ge, kvirispalitra.ge, gaxa.ge və digər informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın aparıcı KİV-lərinə müsahibələrindən geniş materiallar yayır.***



Ильхам Алиев: Премьер-министр Армении надоел мировым лидерам своими звонками

7 Октября, 2020 19:20

"Наверное, преждевременно об этом говорить. Я думаю, что и так немножко забегаю вперед. Просто хочу, чтобы наши соседи и партнеры знали мою позицию. Думаю, что региональное сотрудничество уже достаточно себя проявило во многих сферах", - заявил президент Азербайджанской Республики Ильхам Алиев в интервью российскому "Первому каналу".

**"Если обратить внимание на последние годы, то можно увидеть, что Азербайджан вместе со своими соседями очень**



ილჰამ ალიევი: სომხეთის პრემიერ-მინისტრმა მსოფლიო ლიდერებს თავისი ზარებით თავი მოაბეზრა

7 ოქტომბერი, 2020 18:56

ალბათ ამაზე ლაპარაკი ნაადრევია. ვფიქრობ, რომ მე ისედაც წინ ვუსწრებ მოვლენებს. უბრალოდ მინდა, რომ მეზობლებმა და პარტნიორებმა ჩემი პოზიცია იცოდნენ. ვფიქრობ, რომ რეგიონულმა თანამშრომლობამ უკვე საკმარისად იჩინა თავი ბევრ სფეროში, - ამის შესახებ რუსულ "პირველ არხთან" ინტერვიუში აზერბაიჯანის პრეზიდენტმა, ილჰამ ალიევმა განაცხადა.

**"თუ ბოლო წლებს მივაქცევთ ყურადღებას, დავინახავთ, რომ აზერბაიჯანი მეზობლებთან ერთად ძალიან აქტიურად მუშაობდა თანამშრომლობის მტკიცე რეგიონალური ფორმატის შესაქმნელად. იქნება ეს პოლიტიკური, ეკონომიკური, სატრანსპორტო, ენერგეტიკული თუ სხვა.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan, rus, ingilis və gürcü dillərində yayımlanan materiallarda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin baş vermə səbəbləri, Azərbaycan Ordusunun əks-hücum nəticəsində qazandığı uğurlar, eləcə də münaqişənin sülh yolu ilə həlinin mümkün variantları ilə bağlı fikirləri yer alıb.

Gürcüstan KİV-lərində Azərbaycan Prezidentinin çıxışları sülhsevər liderin çağırışları kimi şərh edilir.

## Avropa Parlamentinin deputatı erməni qoşunlarının Azərbaycandan çıxarılmasını tələb edib



Avropa Parlamentinin Macarıstandan olan deputatı Marton Döndöşi plenar iclasda erməni qoşunlarını Azərbaycandan çıxarmağa çağırıb. AZƏRTAC xəbər verir ki, Döndöşinin fikrincə, "müharibəni kim başlayıb" sualına cavab tapmaq üçün müasir günlərə yox, 30 il əvvəlki dövrə nəzər salmaq lazımdır.

Deputat xatırladıb ki, Ermənistan o vaxt Azərbaycana qarşı təcavüz törədib, onun ərazilərinin 20 faizini işğal edib və sakinlərini qovub. "Münaqişənin nizamlanması yalnız Ermənistanın işğalçı qüvvələrinin Azərbaycandan tamamilə çıxarılması və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi əsasında mümkündür", - deyə Döndöşi vurğulayıb.

## İndoneziya radiosu: Azərbaycanın ərazi bütövlüyü ilə bağlı heç bir güzəşt olmayacaq




Uzun illərdir Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistana ərazi bütövlüyü ilə bağlı heç bir güzəşt edilməyəcək. AZƏRTAC xəbər verir ki, bu barədə İndoneziyanın nüfuzlu "PRO 3 RRİ" radiosuna müsahibəsində Azərbaycanın bu ölkədəki səfir Cəlal Mirzəyev bildirib.

Müsahibədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlamasından bu günə qədər olan proseslər haqqında ətraflı məlumat verən səfir Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın və ona bitişik 7 rayonun 1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini xatırladıb. Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə məhəl qoymadan 28 il həmin torpaqları işğal altında saxladığı vurğulanıb. Həmin qətnamələrdə işğal edilmiş Dağlıq Qarabağ regionu və ətraf yeddi rayondan Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğunu bildirən səfir münaqişə zamanı bir milyondan çox azərbaycanlının öz doğma yurdundan zorla çıxarılaraq məcburi köçkünə çevrildiyini vurğulayıb.

ATƏT-in Minsk qrupu çərçivəsində istər dövlət başçıları, istərsə də Xarici İşlər nazirləri səviyyəsində aparılan danışıqlar prosesi haqqında məlumat verən C.Mirzəyev bir çox beynəlxalq qurumların Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirib. Diplomat İslam Əməkdaşlıq Təşkilatının, Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini beynəlxalq səviyyədə qəbul olunmuş norma və prinsiplərə uyğun şəkildə tanıdığını, Ermənistan silahlı qüvvələrinin işğal altındakı torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını dəstəklədiklərini qeyd edib. Söyləyib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll edilə bilər.

Səfir Ermənistan konstitusiyasına edilən dəyişikliklərdən sonra baş nazir N.Paşinyanın danışıqlar prosesini qeyri-konstruktiv fəaliyyəti və bəyanatları ilə pozduğunu vurğulayıb. Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasından sonra müzakirələrin yenidən başlaya biləcəyini vurğulayan səfir bu şərtin Azərbaycanın əsas tələbi olduğunu deyib. Azərbaycanın münaqişənin dinc yolla həll edilməsi cəhdlərinin Ermənistan tərəfinin destruktiv yanaşması nəticəsində münaqişənin mərhələli şəkildə həll edilməsinə mane olduğunu, ermənilərin istər siyasi, istərsə hərbi təxribatlarla Azərbaycan ərazilərini işğal altında tutaraq status-kvonu saxlamağa çalışdığını söyləyib.

Diplomat N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması ilə danışıqlar prosesini məhv etdiyini, yeni müharibənin başlamasında Ermənistanın Azərbaycana qarşı son zamanlar silahlı təxribatlarının artmasının səbəb olduğunu bildirib. Regionda sülhün bərpa olunması üçün beynəlxalq təşkilatların Ermənistan silahlı qüvvələrini Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı təzyiq göstərməsinin vacib olduğunu vurğulayıb.

Müsahibədə, həmçinin indoneziyalı dinləyicilərə Ermənistanın beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasını kobud şəkildə pozaraq, Azərbaycanın digər bölgələrini artilleriya atəşinə tutması, mülki əhalini, xəstəxanaları, məktəbləri, yaşayış yerlərini, ictimai obyektləri hədəfə alması barədə də geniş məlumat verilib.

facebook

## Hikmət Hacıyev: **“Erməni əsilli Fransa vətəndaşları Qarabağda döyüşür”**



“Jurnalistin reportajı onu göstərir ki, əslən erməni olan Fransa vətəndaşları Ermənistan silahlı qüvvələrinin sıralarında muzdlu yaraqlı olaraq Azərbaycan hərbçiləri və dinc sakinlərinə hücum edirlər”. SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter”də yazıb. “Azərbaycanı ittiham etmək yerinə, biz ölkələri öz vətəndaşlarını dayandırmaq üçün tədbirlər görməyə çağırırıq”, - o qeyd edib.

Xatırladaq ki, dünən Ermənistan XİN işğal altındakı Dağlıq Qarabağ bölgəsinə jurnalist fəaliyyəti ilə məşğul olmaq üçün ezam olunmuş “Novaya Qazeta”nın əməkdaşı İlya Azara verdiyi akkreditasiyanı ləğv edib.

## XİN: “Almaniyalı nazirin açıqlaması təəssüf doğurur”



Almaniya Xarici İşlər naziri Heiko Maasın atəşkəsə çağırış və Azərbaycana təzyiq göstərilməsi barədə açıqlaması ciddi təəssüf və təəccüb doğurur. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin Almaniya Xarici İşlər nazirinin açıqlamasına dair şərhində deyilir.

Bildirilir ki, birtərəfli qaydada atəşkəsə çağırışlar münaqişənin köklü həllinə deyil, işğala əsaslanan status-kvonun saxlanmasına xidmət edir. Bundestaq üzvlərindən biri haqlı olaraq Almaniya Xarici İşlər nazirinə “atəşkəs problemin həlli deyil” - deyə sualla müraciət edib. İşğalçı dövlət olan Ermənistana təzyiq göstərilməlidir: “Almaniyanın da üzvü olduğu Minsk Qrupunun 30 ilə yaxın davam edən fəaliyyəti atəşkəsin davamlı sülhə çevrilməsinə, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmasına və Azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına xidmət etməmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması barədə tələblərinin həyata keçirilməsi üçün hər hansı ciddi tədbirlər görülməmişdir.

Təəssüflə onu da qeyd edək ki, ATƏT-in və Minsk Qrupunun üzvü kimi Azərbaycanın dəfələrlə Almaniyaya müraciət etməsinə baxmayaraq, Almaniya tərəfindən münaqişənin həlli istiqamətində xüsusi fəallıq göstərilməmişdir. Avropa İttifaqı və Azərbaycan arasında tərəfdaşlıq prioritetləri sənədində Aİ-nin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstəyi təsbit olunmuşdur. Aİ-nin aparıcı ölkəsi olan Almaniya sanki bu sənəddən xəbərsizdir. Ona görə də atəşkəs çağırışları BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinin tələblərinə uyğun olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən konkret qrafik əsasında çıxarılmasını nəzərdə tutan planla müşayiət olunmalıdır. Yalnız bu halda atəşkəs davamlı sülhə çevrilə bilər. Vurğulayırıq ki, Azərbaycan öz ərazilərində Ermənistanın təcavüzünə cavab olaraq əks həmlələr həyata keçirir. Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması və işğala son qoyulması Azərbaycan xalqının haqlı tələbidir.

İndiki şəraitdə Azərbaycana hər hansı təzyiqlərin göstərilməsi barədə açıqlamanı ədalətsiz və haqsız hesab edirik. Almaniyanı Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasını təmin etmək üçün Ermənistana təzyiqlər göstərməyə, ədalətli mövqe tutmağa çağırırıq”.




## “İ24 news TV”: Azərbaycan işğal altındakı torpaqlarını azad etdikdən sonra atəşkəsə hazırdır




Bu ilin iyul ayında Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində hərbi təxribata əl ataraq beynəlxalq sərhədlərimizi pozması, ölkəmizin çox mühüm enerji infrastrukturu üçün təhlükə yaratması, münaqişəni beynəlmiləlləşdirməyə cəhd etməsi, Ermənistan baş nazirinin son aylarda müxtəlif ölkələrdə erməni lobbisi ilə görüşləri zamanı səsləndirdiyi təxribatçı fikirlər, xüsusilə də Qarabağla bağlı söylədiyi “Qarabağ Ermənistandır” sözləri onsuz da Azərbaycanın səbir kasasını daşırmışdı. Beləliklə, sentyabrda erməni silahlı qüvvələrinin hücumuna Azərbaycan tərəfi əks-hücumla cavab vermək barədə qərar qəbul etməyə məcbur oldu.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev “İ24news” televiziya kanalına müsahibəsində deyib.

Atəşkəslə bağlı sualı cavablandıran səfir bildirib ki, Azərbaycan Prezidenti ölkəmizin mövqeyini açıq şəkildə ifadə edərək deyib: “Əvvəlcə işğal altında olan torpaqlar azad edilməli, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmalıdır, sonra danışıqlar və atəşkəs mümkündür”.

BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsinin Azərbaycanın işğal olunmuş torpaqlarından erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxması ilə bağlı tələbləri həyata keçirilsə, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon azad olunduqdan sonra danışıqlara və atəşkəsə hazırıq.

Səfir cari ilin iyulunda Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində hücumuna toxunaraq, Dağlıq Qarabağdan uzaqda baş verən bu hadisənin təxribat olduğunu və ölkəmizin səbir kassasını daşırdığını diqqətə çatdırıb. Qeyd edib ki, 1940-cı illərdə Fransa kimi Azərbaycan da əks-hücuma keçərək bu gün Vətən müharibəsi aparır. Məqsədimiz 1992-ci ildən Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etməkdir. Münaqişənin həlli ilə bağlı hüquqi baza güclü olsa da, 27 ildir onun reallaşdırılmasını gözləyirik.

Türkiyənin dəstəyi ilə bağlı suala cavab verən diplomat deyib: “Türkiyənin bugünkü müharibədə rolu Azərbaycana yalnız mənəvi dəstək verməkdən ibarətdir. Bu istiqamətdə Türkiyənin bəyanatları, fəaliyyəti beynəlxalq hüquq çərçivəsindən kənara çıxmır. Türkiyə, sadəcə, Azərbaycanın tək olmadığını deyir. Türkiyənin bugünkü rolu konstruktivdir”.

Səfir Ermənistanın Dağlıq Qarabağdan uzaqda yerləşən mülki obyektləri, infrastrukturu, əhalini hədəfə aldığını deyərək, Gəncə, Mingəçevir, Yevlax, Bərdə kimi şəhərlərimizin işğalçı ölkənin silahlı qüvvələri tərəfindən bombardman edilməsindən danışıb. Bildirib ki, bu gün Azərbaycan Ermənistanın ərazisinə toxunmur. Ancaq Ermənistan həmişəki kimi, hərbi təxribatlarını davam etdirərək, beynəlxalq hüququ və Cenevrə Konvensiyasını pozur.

## Aşkenazi yəhudilərinin Baş ravvini: Biz Azərbaycanda müxtəlif dinlərin və millətlərin mənsubları kimi rahat yaşayırıq



***Azərbaycanda yaşayan Aşkenazi yəhudiləri də oktyabrın 8-də Bakıda yerləşən sinaqoqa yığışaraq ölkəmizin ərazi bütövlüyünün tez bir zamanda təmin olunması uğrunda davam edən gərgin savaşda şanlı ordumuzun qələbəsi üçün dua ediblər. yəhudi həmvətənlərimiz Allahdan müharibənin tezliklə başa çataraq torpaqlarımızın azad olunmasını, əsgərlərin sağ-salamat evə qayıtmasını, ölkəmizdə və bütün dünyada sülhün bərqərar olmasını diləyiblər.***

AZƏRTAC xəbər verir ki, mərasimdən sonra jurnalistlərə açıqlama verən Azərbaycandakı Aşkenazi yəhudilərinin Baş ravvini Şneor Seqal yəhudilərin Azərbaycanı çox sevdiyini və onu qorumağın böyük şərəf olduğunu deyib. O bildirib: “Biz Azərbaycanda müxtəlif dinlərin və millətlərin mənsubları kimi rahat yaşayırıq. Biz Azərbaycan üçün savaşan hər bir əsgərə dualar edik, Tanrıdan mütləq qələbələr arzuladıq. İnanırıq ki, növbəti mərasimi Şuşada keçirəcəyik”.

## General-mayordan: **Zəfərə az qaldı!**



***“Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərimizdə hərbi əməliyyatları uğurla davam etdirir. Əvvəlcə düşmənin atəş nöqtələri zərərsizləşdirilir”. SİA-nın məlumatına görə, bunu “Hürriyət”ə özəl açıqlamasında Azərbaycan Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi Hüseyn Mahmudov bildirib. İdarə rəisi 27 sentyabrdan bəri Ermənistan ordusuna vurulan ziyanları da açıqlayıb: “Bu günə qədər 250 tank, zirehli texnika, 270 top və raket sistemi, 60 hava hücumundan müdafiə sistemi, 11 komanda-müşahidə məntəqəsi, 150 piyada maşını, 7 sursat anbarı, 10 idarəetmə mərkəzi və 1 S-300 hava hücumundan müdafiə sistemi məhv edilib”.***

H.Mahmudov ordumuzun bu ana qədər 27 km irəliləyiş təmin etdiyini vurğulayıb: “27 yaşayış məntəqəsini düşməndən təmizlədik. Ermənistan ordusu cəbhədə bizə qarşı dayana bilmədi. Çox sayda mövqelərini qoyub qaçdılar. Biz vətən uğrunda döyüşürük Qarabağ və işğal altındakı bütün torpaqlarımız azad olunana qədər də dayanmayacağıq. Zəfərə az qaldı”.

General-mayor cəbhədə Türkiyənin Pilotsuz Uçuş Aparatları və Silahlı Pilotsuz Uçuş Aparatlarının Azərbaycan ordusunun gücünə güc qatdığını qeyd edib: “Türkiyədən aldığımız və Azərbaycan ordusunun arsenalına daxil olan bu silahlar ordumuzun döyüş qabiliyyətini artırıb. Havadan müdafiə sistemimizə böyük töhfəsi olub”. Nazirlik rəsmisi Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə sadəcə ermənilərlə deyil, həm də terrorçularla mübarizə apardığını diqqətə çatdırıb: “Cəbhəyə Liviya, Suriyadan terrorçu daşıyıblar. Kimi gətirirlərsə-gətirsinlər, Azərbaycan ordusunu dayandırmayacaqlar. Ermənistan bölgəni terror yuvasına çevirmək istəyir. Amma biz Ermənistan əsgərlərini də, onlara dəstəyə gələnləri də Qarabağdan təmizləyəcəyik”.

***Aysel Məmmədova***

# Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə videokonfransı keçirilib







***Oktyabrın 8-də Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) birgə videokonfransı keçirilib.***

Videokonfransı giriş sözü ilə açan Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov iştirakçıları salamlayıb və bildirib ki, bu tədbir Azərbaycan-Türkiyə qardaşlığının bir ifadəsidir. Onun sözlərinə görə, Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra Türkiyə ilə ölkəmiz arasında münasibətlər yüksək səviyyədə inkişaf edib. Ulu Öndər Heydər Əliyevin dediyi “Bir millət-iki dövlət” kəlamı hər iki ölkədə dillər əzbəridir. Əli Əhmədov qeyd edib ki, hazırda Azərbaycan öz torpaqlarını işğaldan azad etmək uğrunda mübarizəyə başladıqdan sonra artıq bütün dünya Azərbaycanla Türkiyənin sarsılmaz qardaşlığından və dostluğundan danışır. Eyni zamanda, bu dostluğun və qardaşlığın Azərbaycanın ədalətli savaşında nə qədər böyük dəstək verdiyini özündə ehtiva edir.

Əli Əhmədov problemin həlli ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin prinsipal mövqeyini bir daha diqqətə çatdırıb və bu məsələdə birmənalı dəstəyinə görə Türkiyə dövlətinə və xalqına təşəkkürünü bildirib: “Bu gün Azərbaycan öz torpaqlarının işğaldan azad olunması uğrunda ədalətli savaşa başlayıb. Azərbaycanın hər bir vətəndaşı istəyir ki, 30 il işğal altında olan torpaqları azad etsin. Ərazilərimiz işğaldan azad olunur və Azərbaycan bayraqları bu torpaqlarda dalğalanır. Bu savaş bütün ərazilərimiz azad edilənə qədər, sərhədlərimiz bərpa olunana qədər davam edəcək. Ölkədə bütün xalqımız, o cümlədən bütün siyasi partiyalar, QHT-lər Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Dünya getdikcə Azərbaycanın haqq işini daha geniş hiss edəcək. Azərbaycanın və Türkiyənin apardığı işlər nəticəsində biz buna nail oluruq. 30 il ərzində bu münaqişənin sülh yolu həllini gözləmişik”.

YAP Sədrinin müavini qeyd edib ki, bu illər ərzində ATƏT-in Minsk qrupu və həmsədrləri bu münaqişənin həlli və işğal altındakı torpaqlarının azad edilməsi üçün gərəkən işləri görə bilmədilər: “Azərbaycan öz haqq işi uğrunda mübarizəsini aparır. Bu mübarizə Qafqaza sülh gətirəcək. Türkiyə haqqın və ədalətin yanındadır. Qarabağı işğaldan azad etməklə Azərbaycan Qafqazda sülhün və əmin-amanlığın bərqərar olması üçün töhfələrini verir. Ümid edirəm ki, döyüşlər başa çatanda işğaldan azad olunan Qarabağda YAP və AKP-nin birgə toplantısını keçirəcəyik. Azərbaycanda hər kəs bu savaşın böyük qələbə ilə başa çatması ilə yaşayır. Ordumuz və Prezidentimiz bu böyük qələbə üçün lazım olan hər şeyi edir. Türkiyə cəmiyyətində də hər kəs Qarabağ savaşından danışır. Onu da qeyd etmək istəyirəm ki, münaqişənin nizamlanması üçün vasitəçilik missiyyasını yerinə yetirən ATƏT-in Minsk qrupu ötən illər ərzində özünü doğrultmadı. Buna görə də, münaqişənin həlli üçün yeni format tapılmalı və Türkiyə bu prosesdə fəal iştirak etməlidir. Çünki zaman göstərdi ki, problemin həlli üçün regiondan uzaqda olan dövlətlər deyil, məhz region ölkələri böyük töhfələr verə bilər. Bu baxımdan, Türkiyənin rolu xüsusi qeyd edilməlidir”.

“Türkiyə Cümhuriyyəti bütün qəlbi ilə Azərbaycan dövlətinin və xalqının yanındadır. Bütün beynəlxalq təşkilatlarda sona qədər Azərbaycana dəstək göstərəcəyik”. Bu fikirləri isə Türkiyənin Ədalət və İnkişaf Partiyasının genel başkan vəkili, İstanbul millət vəkili Numan Kurtulmuş çıxışı zamanı deyib. Numan Kurtulmuş bildirib ki, Türkiyə dövləti olaraq Azərbaycana qətiyyətli mövqeyimizi, dəstəyimizi ifadə edirik. Türkiyə sonunadək Azərbaycan xalqının və dövlətinin yanında olacaq. “Bir millət, iki dövlət” şüarını təkcə sadəcə söz olaraq söyləmirik. Azərbaycana ən kiçik zərbə dəydiyi zaman, bizim bütün vətəndaşlarımız bunu özündə hiss edir. Onun sözlərinə görə, Türkiyə Azərbaycan haqlı savaşında sonuna qədər onun yanında olacaq: “Rəsmi olaraq bu dəstəyi ifadə edirik. Bu dəstəyi partiyalar səviyyəsində göstərmək üçün Yeni Azərbaycan Partiyası və AKP arasında əməkdaşlığı genişləndirmək üçün bu konfransı keçiririk. Bu toplantı dəyərlidir. Azərbaycanı haqlı mübarizəsində dəstəkləyirik. Bu məsələdə bəzi ölkələr də Azərbaycanın mövqeyini dəstəkləyib. Dağlıq Qarabağ münaqişəsində işğalçı tərəf olan Ermənistandır. Bir sıra Avropa ölkələrində diaspor vasitəsilə Dağlıq Qarabağ probleminin həllinə mane olan ölkə də Ermənistandır. Dünya bu həqiqəti görməlidir. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından bütünlüklə çəkilməlidir. Ermənistan Azərbaycan ərazilərindən geri çəkilənə qədər bu problem bitməz. Azərbaycan hər hansı müharibə istəmədi, bu müharibəni başlamadı. Ancaq öz torpaqları uğrunda mübarizə aparır. Azərbaycan Ordusu dünyanın gözü önündə bu hədəflərə doğru irəliləyir, işğalçılara göz açdırmır. Diləyimiz Qarabağın işğaldan azad olunmasıdır”.

AKP rəsmisi söyləyib ki, Türkiyə Azərbaycanın haqq işini bütün plaformalarda dilə gətirir. Onun sözlərinə görə, dünya ictimaiyyəti Ermənistanın işğalçı olduğunu bilir: “Atəşkəsdən bəhs etsələr də, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsindən danışmırlar. Bu, qəbulolunmazdır. Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir, münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri var və onlar icra edilməlidir. Ona görə də işğalçıya diplomatik təzyiqlər göstərmək lazımdır. Biz Türkiyə olaraq bütün dünyaya anlatmağa çalışırıq ki, bu regionda sülh və sabitliyin təmin olunması üçün erməni işğalına son qoyulmalıdır. Biz Qafqazlarda münaqişə istəmirik. Azərbaycan tarixi torpağı olan Qarabağı işğaldan azad etdikdən sonra bölgədə davamlı sülh təmin olunacaq. Türkiyə olaraq bu regionda bütün xalqların sülh şəraitində yaşamasını istəyirik. Haqq olan yerdə qalib gəlməmək mümkün deyil. Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında sonuna qədər Azərbaycanın haqlı mövqeyi müdafiə edəcəyik”.

Numan Kurtulmuş onu da qeyd edib ki, Ermənistan PKK və digər terrorçuları Dağlıq Qarabağdakı döyüşlərə cəlb edir. Bu isə yolverilməzdir. “Qarabağın işğalı 30 ildir davam edir. Bu 30 illik müddətdə ATƏT-in Minsk qrupunun problemin həlli üçün ciddi təşəbbüsləri olmadı. Azərbaycanın haqlı davası da buna görədir. Azərbaycanlı qardaşlarımız bu savaşda inşallah zəfər çalacaq. Haqq mübarizəsində şəhid olan qardaşlarımıza Allahdan rəhmət diləyirəm”-deyə, o vurğulayıb.

Milli Məclisin Azərbaycan-Türkiyə Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Türkiyənin Azərbaycanın haqq işinə dəstəyinin xalqımız tərəfindən yüksək qiymətləndirilmdiyini deyib. O bildirib ki, bu amil Azərbaycanın haqlı mübarizəsinin beynəlxalq birliyə çatdırılmasında da mühüm rol oynayacaq. Ə.Əmiraslanov cəbhədə vəziyyətin gərginləşdiyi gündən etibarən türkiyəli həmkarları ilə daim təmasda olduqlarını da diqqətə çatdırıb.

TBMM-nin Türkiyə-Azərbaycan dostluq qrupunun rəhbəri, İstanbul millət vəkili Şamil Ayrım isə çıxışında bildirib ki, quldur Ermənistan Azərbaycan torpaqlarından çıxmalıdır. Əks halda, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün sonadək mübarizə aparacaq. Şamil Ayrım qeyd edib ki, hazırkı şəraitdə Azərbaycanda müşahidə olunan milli birlik qürurvericidir. Onun fikrincə, bu birlik sayəsində Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad edəcək və bu məsələdə Türkiyə daim qardaş ölkənin yanındadır.

Dostluq qrupunun rəhbəri bugünlərdə Türkiyənin Xarici İşlər naziri ilə birlikdə Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olduğunu və bu görüşlə bağlı təəssüratlarını bölüşüb. O həmçinin hər gün azərbaycanlı həmkarları ilə əlaqə saxlayaraq, cəbhədəki vəziyyətlə maraqlandığını söyləyib. “Ermənilərin dinc insanları atəşə tutması vəhşilikdir”-deyən Ş.Ayrım zəfərin Azərbaycanla olacağına əminliyini bildirib.

“Türkiyə dövlətinin Azərbaycana dəstəyi dəyişməzdir”. Bu fikri isə videokonfransda Ədalət və İnkişaf Partiyasının genel sekreteri, Ankara millət vəkili Fatih Şahin deyib. Fatiş Şahin bildirib ki, Azərbaycanın tarixi torpağı olan Qarabağı işğalçılardan azad etmək haqqı var. Bu yolda Türkiyə xalqı öz dəstəyini hər zaman ifadə edib. “AKP və YAP olaraq sıx əlaqələrimiz var. Hesab edirəm ki, indiki məqamda əlaqələrimizi daha da gücləndirməliyik. Bizim birliyimiz dövlətlərimizin birliyinin daha da güclənməsinə xidmət edir. Biz Azərbaycanın haqq savaşında qalib gələcəyinə inanırıq”-deyə, Fatih Şahin söyləyib.

AKP-nin Sivil toplum və xalqla ilişkilər başkanı Jülide Sarıeroğlu çıxışında türk xalqının dualarının Azərbaycanla olduğunu söyləyib: “İnanıram ki, Azərbaycanın torpaq bütünlüyü uğrunda mübarizəsi qələbə ilə başa çatacaq. Bu yolda Azərbaycan Ordusuna dualarımızla dəstək veririk.

Çıxış edən AKP-nin Tanıtım və media başkanı, Kahramanmaraş millət vəkili Mahir Ünal deyib ki, Qarabağın işğal altında olması qəlbimizdə bir yara idi: “Xocalı faciəsinin yarasını ürəyimizin dərinliyində hiss edirik. Bu gün isə gəldiyimiz nöqtə odur ki, tezliklə haqq öz yerini tapmalıdır”. Mahir Ünal bildirib ki, bu gün Azərbaycan ordusu Qarabağın işğaldan azad edilməsi yolunda zəfərlər qazanmaqdadır. Onun fikrincə, bu zəfərlər təkcə Azərbaycanda deyil, Türkiyədə, eləcə də bütün İslam coğrafiyasında coşğu yaratmaqdadır: “Biz Türkiyə, AKP olaraq Azərbaycanın ədalətli savaşına daim dəstək veririk. Bu dəstəyi beynəlxalq media müstəvisində də göstəririk. Hesab edirik ki, Qarabağ probleminin həlli üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilməlidir”.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova çıxışında bildirib ki, hazırkı məqamda Türkiyənin dəstəyi torpaqlarımızın işğaldan azad edilməsi işində xalqımızın mənəvi gücünü artırır. ATƏT-in Minsk qrupunun fəaliyyətinə münasibətini ifadə edən B.Muradova Prezident İlham Əliyevin bu qurum haqqında fikirlərini də xatırladıb. O deyib ki, artıq Minsk qrupunun heç bir perspektivi yoxdur. B.Muradovanın fikrincə, Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə digər münaqişələrin həlli üçün də yol xəritəsi göstərir. Bununla da beynəlxalq müstəvidə sülhə və təhlükəsizliyə töhfə vermiş oluruq.

Milli Məclisin İntizam Komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov isə çıxışında Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədərimiz isə bizim kədərimizdir” kəlamını xatırladıb. Azərbaycanla Türkiyənin qardaşlığının sarsılmaz olduğunu söyləyən E.İbrahimov hazırkı məqamda bu qardaşlığın təntənəsini yaşadığımızı söyləyib. O, əmin olduğunu bildirib ki, Azərbaycanın başladığı mübarizə torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnəcək.

# "Bu gün Azərbaycanda vahid güc reallığı Ali Baş Komandan, Ordu, Xalq mütəşəkkiliyində birləşib"

***Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyevin SİA-ya müsahibəsi***

*- Məhərrəm müəllim, Qarabağ cəbhəsində gedən döyüşlər və Ordumuzun yağı düşmən üzərində ard-arda qazandığı qələbələrini necə şərh edərdiniz?*

- Öncə qeyd edim ki, Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq, Qarabağ cəbhəsində işğalçı və təcavüzkar Ermənistanın silahlı qüvvələrinin, eləcə də onların marioneti olan quldur, qondarma "DQR" rejiminin davamlı təxribatlarına qarşı əks-hücum əməliyyatlarına başlaması və cəbhənin müxtəlif istiqamətlərində əldə edilən zəfər yürüşümüz haqlı, ədalətli mövqeyimizin bariz göstəricisidir.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında düşməni darmadağın edən Şanlı Ordumuz bu gün də dünyaya sübut edir ki, onun mütərəqqi, sarsılmaz Silahlı Qüvvələri var. Deyərdim ki, qısa müddətdə kəndlərimizin, rayonlarımızın, strateji əhəmiyyətli yüksəkliklərin düşməndən azad olunması prosesi həm də dünyanın hərb tarixində yeniliyə imza atıb. Söz yox ki, bu haqlı mübarizədə əsgərlərimizin, zabitlərimizin məğlubedilməzlik ruhu, müzəffər amalı da önəmli rol oynamaqdadır. Bunu isə onlara xalqın dəstəyi, xalqın vahidliyi verməkdədir. Lakin onu da unutmamalıyıq ki, müasir, bütün lazımi hərbi xarakterli təhcizatlarla, texniki imkanlarla təmin olunmuş Ordumuz bu kontekstdən də düşməni öz yuvasına qədər qovmaqdadır.

Əlbəttə ki, ən önəmlisi, cənab Prezident İlham Əliyevin xalqa etdiyi müraciətində vurğuladığı fikirləri hər birimizi qürurlandırdı və qələbəyə doğru atılan addımlarımızı sürətləndirdi. Beləliklə, bu gün Azərbaycanda vahid güc reallığı Ali Baş Komandan, Ordu, Xalq mütəşəkkiliyində birləşib və bu danılmazlıq yuxarıda qeyd etdiyim fikirlərin hər birində öz təsdiqini tapır.

*- Bu arada daha bir məqama toxunmaq istərdim. Bu gün Azərbaycan demək olar ki, dünya birliyinin bir çox ölkələri, təşkilatları tərəfindən dəstək alır. Lakin əsas dəstəyi Türkiyə və Pakistan kimi ölkələrdən görməkdəyik. Sizcə belə bir dəstək arxasında hansı gerçəkliklər dayanmaqdadır?*

- Mən daha əvvəllər verdiyim müsahibə və açıqlamalarımda da qeyd etmişəm ki, Azərbaycanın haqlı və ədalətli mövqeyinə ən açıq və birmənalı dəstəyi göstərən ölkələr qardaş Türkiyə Cümhuriyyəti və Pakistan İslam Respublikasıdır. Məhz bu ölkələrin rəhbərlikləri səviyyəsində verilən bəyanatlar, səslənən fikirlər də sübut edir ki, sarsılmaz birliyə söykənən qardaşlıq bağları əbədidir, dönməzdir. Bu gün Pakistan tərəfi bəyan edir ki, Azərbaycanın haqq yürüşündə bütün mənalarda dəstək göstərməyə hazırdır. Əlbəttə, bu gün Azərbaycan dövlətinin hərbi potensialının, büdcəsinin kifayət qədər yüksək olması buna ehtiyac görmür. Yəni Azərbaycan Ordusu öz gücü ilə düşmənə qarşı mübarizə aparır. Ancaq eyni zamanda, pakistanlı qardaşlarımızın belə bəyanatları mənəvi cəhətdən bizi ruhlandırır, əzmimizi artırır. Buna görə, onlara minnətdarlıqlarımızı bildiririk. Həmçinin, Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti Rəcəb Tayyib Ərdoğan cənablarının, eləcə də parlament rəh-



bəri, baş naziri, müdafiə və xarici işlər nazirləri səviyyəsindəki dəstəkləri, buna qədər isə çoxsaylı uğurlu hərbi təlimlərin keçirilməsi bu gün Qarabağ cəbhəsində qazandığımız qələbələrdə ruhumuzu yüksəldir. Bəli, məhz mənəvi dəstək bir çox sədləri aşır və aşmaqda davam edəcək. "Bir millət, iki dövlət" prinsipi həmin gerçəkliyin isbatıdır. Buna əmin olun. Əmin olun ki, torpaqlarımızın işğaldan azad olunması prosesi tam sürətlə davam edir və çox yaxınlarda növbəti zəfər, qələbə xəbərlərini bir-birimizlə paylaşacağıq.

*- Məhərrəm müəllim, bəs Gürcüstanın bu məsələyə münasibətini necə qiymətləndirirsiniz?*

- Bu gün Gürcüstan-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir və ölkələrimiz arasında bütün tələb olunan beynəlxalq əməkdaşlıqlara riayət edilir. Ölkəmizlə Gürcüstan arasında hər hansı həll olunmamış problem demək olar ki, qalmayıb. O cümlədən, Gürcütsan Azərbaycanın ən yaxın strateji müttəfiqi olaraq qiymətləndirilir. Bu ölkə daim Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Eyni zamanda, Azərbaycan torpaqlarının işğaldan azad olunmasının tərəfdarı olaraq, Qafqaz regionunda ədalətin, inkişafın, tərəqqinin də yüksələn xətlə irəliyə gedəcəyini arzu edir. Bu, əldə olunarsa, bilavasitə dünya miqyasında ən önəmli layihələrin reallaşdırılması da genişlənər, münbit şəraitlər yaranar.

*- Məhərrəm müəllim, qonşu İranın mövqeyini necə şərh edərdiniz?*

- İran İslam Respublikası bizim yaxın qonşumuz olmaqla yanaşı, həm də müsəlman ölkəsidir. Biz unutmamalıyıq ki, hələ birinci Qarabağ müharibəsində Naxçıvan Ermənistan tərəfindən blokadada saxlanılanda, Türkiyə ilə yanaşı, İran tərəfi də xilas körpüsü açdı, xalqın çətin, ağır vəziyyətdən çıxması üçün həyati vacibliyi olan addımlarını atdı. Biz bunu unutmamışıq.

Lakin bu gün İranın ali siyasi dairələrinin Azərbaycanın haqlı mövqeyinə dəstək göstərməsini də yüksək qiymətləndiririk. Hətta düşünürəm ki, bizim Cənub qonşumuz olan İran dövləti və xalqı Azərbaycanın onunla həmsərhəd olan işğal altındakı ərazilərimizin düşmən tapdağından azad olunmasına sevinir, qələbəmizi alqışlayır. Çünki cənab Prezident İlham Əliyev dəfələrlə öz çıxış və müraciətlərində işğal altındakı ərazilərimizdəki məscidlərin, müqəddəs yerlərin donuz, inək fermalarına çevrildiyini, qəbirlərimizin dağıdıldığını xatırladaraq, müsəlman dünyasını bu rəzalətə susqun qalmamasına səsləyirdi. Bu ərazilər narkotranzitə, qanunsuz silah alverinin mərkəzinə çevrilmişdi. Müsəlman dünyası bu cür əməllərə susqun qala bilməzdi. O cümlədən, İslam Respublikası olan İran da əlbəttə ki, bu çağırışa öz səsini verdi - Azərbaycanın doğma torpaqlarının işğaldan azad olunmasına, ərazi bütövlüyümüzün təmin olunmasına dəstəyi ilə. Çünki daha bir məsələ budur ki, işğal altında qalan və bu gün azad olunan İranla həmsərhəd ərazilərimiz həm də terror yuvasına çevrilmişdi, həmin ölkəyə təhlükə saçırdı. Düşünürəm ki, bundan sonra, yəni ərazilərimiz işğaldan azad edildikdən sonra, Azərbaycan beynəlxalq terrorla mübarizə siyasətində İran daxil olmaqla, digər qonşu ölkələrlə birlikdə, geniş xarakterli addımlar atacaq.

Eyni zamanda, İran dövlət başçısının Prezident İlham Əliyev cənablarına etdiyi telefon zənginə də münasibət bildirərək qeyd etmək istərdim ki, dövlətimizin başçısı cənab İlham Əliyev ölkələrimiz arasında bir sıra əməkdaşlıq məqamlarına toxunaraq, işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsinin nəzərdə tutulduğunu bildirib.

*- Paşinyanın hərbi məsələlər üzrə baş müşaviri Vaqarşak Arutyunyan "Rossiya 1" kanalına müsahibəsi zamanı işğalçı ordusunun riyakarlığını sübuta yetirən açıqlamalar verib və cəbhədən xeyli uzaqlıqda yerləşən şəhərlərimizi, dinc sakinlərimizi hədəfə aldıqlarını bəyan edib. Bu fakt da Ermənistanın dövlət terroru siyasəti həyata keçirməsini sübuta yetirmirmi?*

- Bəli, tamamilə doğrudur. Paşinyanın o müşaviri Ermənistanın dövlət səviyyəsində sülh və insanlıq əleyhinə ağır cinayətlər törətməsini bir daha sübut etdi. Bununla da onlar beynəlxalq humanitar hüququn, 1949-cu il Cenevrə Konvensiyasının tələblərinin həyasızcasına pozmalarını bir daha sübut edir. Erməni müşavirin bəyanatı Ermənistan dövlətinin iç üzünü - mahiyyətini bir daha ifşa edir, onların məqsədi mülki şəxsləri, onların mülklərini, məktəbləri, xəstəxanaları və sair mülki obyektləri barbarcasına məhv etməklə mülki əhali arasında təşviş və qorxu yaratmaqdadır. Bu faktlar isə heç bir sivil qaydalara uyğun gələ bilməz.

Bir halda ki, belə bəyanatla onun hərbi məsələlər üzrə baş müşaviri çıxış edir və bunu çəkinmədən deyir, bu zaman Azərbaycan Silahlı Qüvvələri nəinki işğal altındakı torpaqlarının azadlığı uğrunda mübarizə aparır, həm də anti-terror əməliyyatlarını həyata keçirir. Bugünlərdə PKK terror təşkilatının üzvləri arasındakı gizli bağlantılarının da ifşa olunması, öldürülmüş terrorçuların fotolarının mediada işıqlandırılması bizə kifayət qədər əmin verir ki, biz haqq mübarizəsindəyik və terrorun bir daha ayaq açaraq-yeriməməsi üçün, terrorun kökünü kəsmək üçün, tərəddüd etmədən irəliyə doğru getməkdəyik.

Əbəs deyil ki, hələ hərbi əməliyyatlar başlamamışdan əvvəl biz bu barədə tam, müfəssəl məlumatlara malik idik və cənab Ali Baş Komandanımız da bu barədə məlumatlı olduğunu qeyd etmişdi. Yaxın Şərq ölkələrindən, Ermənistan üzərindən Qarabağa keçmələri haqqında mətbuatımız da, xarici KİV-lər də çoxsaylı dəlilləri ortaya qoydular. Belə olan vəziyyətdə Azərbaycan sakit oturub, baş verənlərə adi seyrci qala bilməzdi. Ona görə də, əgər biz işğalçılarla, onlar rejimlə mübarizə aparır, onları öz yuvalarına tərəf qovuruqsa, onlarla birgə vuruşan terrorçuları da məhv etməkdəyik. Bizim işimiz haqq işidir, getdiyimiz yol xalqın, vətəndaşın dəstəyi ilə ruhlanan ədalət, qələbə yürüşüdür. İnşaAllah, qısa zamanda bizim şanlı bayrağımız qəhrəman əsgərimizin əlləri ilə növbəti azad olunacaq ərazilərimizdə yüksəkliklərə qaldırılacaq. Qarabağımızın o günü uzaqda deyil. Cənab Ali Baş Komandanımız vurğuladığı kimi, Qarabağ Azərbaycandır!

*- Məhərrəm müəllim, bu münaqişəyə dair Rusiya Federasiyasının rolu, mövqeyi barədə nə deyə bilərdiniz?*

- Söz yox ki, Rusiyanın mövqeyini yüksək qiymətləndiririk. Bu gün Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında yüksək səviyyəli əlaqələr mövcuddur. Hər iki ölkənin Prezidentləri qarşılıqlı görüşlər keçirib, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadilələri aparıb, razılaşmalar, sazişlər imzalayıblar.

Ən əsası isə, Rusiya Federasiyası Azərbaycanın ərazi bütövlüyünü tanıyır və həmişə Azərbaycan xalqının, dövlətinin Rusiyaya qarşı xoş, isti münasibətini görür. Bu münasibət indi də yüksək səviyyədədir, gələcəkdə daha da möhkəmləndiriləcək.

Bu gün Azərbaycanla Rusiya strateji tərəfdar olmaqla iki ölkə arasında çoxşaxəli əlaqələr və imkanlar mövcuddur, hər iki ölkə arasında bir sıra regional və beynəlxalq məsələlərdə müzakirələr aparılır, müəyyən razılıqlar əldə olunur. Həmçinin, Azərbaycanda nəhəng rus icması yaşayır və onlar burada özlərini çox rahat, xoşbəxt, firavan hiss edirlər. Ölkəmizdəki rus icmasının nümayəndələri Azərbaycanı özlərinin Vətəni hesab edir. Əbəs deyil ki, hələ birinci Qarabağ müharibəsində Azərbaycan vətəndaşı olan rus icmasının nümayəndələri torpaqlarımızın azadlığı uğrunda döyüşüblər, şəhid olublar. Qədirbilən Azərbaycan xalqı heç vaxt bu xoş, vətənpərvərlik münasibətlərini unutmayıb və unutmayacaq da.

Bu gün monoetnik Ermənistanda həmin halı müşahidə etmək ümumiyyətlə qeyri-mümkündür. İşğalçı ölkə hələ 90-cı illərdən "Ermənistan ermənilər üçün" şüarı ilə özlərinin ultra-millətçilik, şovinist xüsusiyyətlərini hazırda da yaşatmaqdadırlar. Əgər bu gün Azərbaycanda rusdilli məktəblər, kurslar və s. tədris müəssisələri fəaliyyət göstərirsə, ali məktəblərimizdə rus dili fakültələri mövcuddursa, rus icmasının dini, ənənəsi və s. milli mahiyyətləri qorunub-saxlanılırsa, Ermənistan tərəfində belə bir imkanların yaradılmasından ümumiyyətlə danışmaq mümkün deyil. Çünki həmin ölkədə ruslar demək olar ki, yox səviyyəsindədir. Bu gün Ermənistan parlamentindən fərqli olaraq, Azərbaycan parlamentində rus icmasının təmsilçisi fəaliyyət göstərir. Amma ermənilərdə necədir? Fakt budur ki, Paşinyan hakimiyyətə gələr-gəlməz anti-Rusiya siyasətinə başladı və bir daha sübut etdi ki, o birbaşa Corc Sorosun adamıdır və onun himayəsi, maliyyəsi altında anti-türk, anti-Rusiya və s. yanlış istiqamətli, qonşuluq prinsiplərindən uzaq siyasətinə köklənib.

Son olaraq isə daha bir vacib məqama toxunmaq istərdim. Prezident İlham Əliyev cənablarının Rusiya Federasiyasının dövlət başçısı cənab Vladimir Putinə telefon zəngi açması və ölkələrimiz arasında mövcud olan sıx əməkdaşlıq barədə söhbətlərin aparılması da Azərbaycan və Rusiya Federasiyası arasında mövcud olan münbit, qarşılıqlı və səmimiyyətə əsaslanan uğurdur, reallıqdır. Hesab edirəm ki, iki ölkə arasındakı yüksək əməkdaşlıq və tərəfdaşlıq faktoru bundan sonra daha da möhkəmləndiriləcək.

*- Cənab general-polkovnik Azərbaycanın haqlı mübarizəsində biz jurnalistlər də dövlətimizin Silahlı Qüvvələrimizin yanındayıq və bu haqq işimizdə Ordumuza uğurlar arzulayırıq. Geniş müsahibənizə görə təşəkkür edirik, çox sağ olun.*

- Mən də minnətdaram, hər birinizə fəaliyyətinizdə uğurlar və qələbə müjdələri verməyi arzulayıram.

***Rövşən RƏSULOV***

## Hulusi Akar: Ermənistanın mülki əhaliyə hücumu səbrimizi daşıran son damla oldu



"İşğalçı Ermənistanın Tovuzdan sonra başqa mülki yaşayış obyektlərinə hücuma cürət etməsi və təkəbbürü səbrimizi daşıran son damla oldu". SİA-nın məlumatına görə, bunu Qətər üçün inşa edilən hərbi təlim gəmisinin suya endirilməsi mərasimində çıxışında Türkiyənin Müdafiə naziri Hulusi Akar deyib.

"Otuz ildir Azərbaycanın öz torpaqlarının 20 faizinin işğal edilməsinə səs çıxarmayanların atəşkəs çağırışı etmək yerinə işğalçı Ermənistanın Qarabağı tərk etməsini təmin etmələri daha doğru olacaq. Xocalıda barbarlıqla uşaq, qadın, qoca demədən minlərlə məsum insanın qətlə yetirilməsinə, milyona yaxın insanın evindən didərgin düşməsinə göz yumanların Ermənistanı şıltaqlaşdırmaqdan imtina etmələri yerinə düşər", - nazir qeyd edib. H.Akar əlavə edib ki, Gəncə və digər yaşayış məskənlərinə raket və qadağan olunmuş silahlarla hücum etmək Ermənistanın barbarlığını, cahilliyini və gerçək üzünü ortaya qoyur: "Ermənistan müharibə cinayəti işləyir. Bu problem indi və dərhal həllini tapmalıdır. Hər zaman hər yerdə qürurla ifadə etdiyimiz kimi, Azərbaycanın dərdi bizim dərdimiz, sevinci bizim sevincimizdir".

*Aysel Məmmədova*

## Qazaxıstanlı politoloq: Azərbaycan öz torpaqlarını və ərazi bütövlüyünü qorumağa çalışır



Son günlər Dağlıq Qarabağ münaqişəsi ətrafında eskalasiyanın şahidi oluruq. Bu münaqişə 30 ilə yaxındır ki, həllini tapmayıb. Beynəlxalq ictimaiyyət bu məsələnin birbaşa həllini tapmağa çətinlik çəkir. Hər hansı bir dövlət, xalq ölkəsinin ərazi bütövlüyünü qorumağa çalışır. Bu baxımdan bu gün Azərbaycan öz torpaqlarını və ərazi bütövlüyünü qorumağa çalışır. Bu fikirləri AZƏRTAC-a müsahibəsində qazaxıstanlı politoloq Kazbek Mayqeldinov bildirib. O qeyd edib ki, Qazaxıstan münaqişənin beynəlxalq hüququn normaları əsasında həllinin tərəfdarıdır. Türkiyə Azərbaycana əsl qardaş kimi mənəvi dəstək göstərir. Əslində, qazax xalqı sosial şəbəkələrdə "Mən azərbaycanlıyam" çağırışı edir. Bu, qazax xalqının belə çətin məqamda türk qardaşlarına mənəvi dəstək göstərmək istəklərindən irəli gəlir. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

## Bəhruz Quliyev: "Könüllülərin sayının artması dövlət başçısına inamın nəticəsidir"



Ali Baş Komandan, Prezident İlham Əliyevə istər ölkəmiz daxilində, istərsə də xarici ölkələrdən edilən çoxsaylı müraciətlər sübut edir ki, bu gün dünyanın harasında olursa-olsun, hər bir azərbaycanlıda Vətən ruhu, Vətən amalı daha da artıb. Bu, öncə xalqın öz Liderinə olan inamının, etimadının göstəricisidir, çünki Azərbaycan dövləti yağı və mənfur düşmənlə haqq mübarizəsi aparır - işğaldakı torpaqlarının azad edilməsi, 30 ildir doğma yurd-yuvalarından qaçqın, didərgin düşmüş vətəndaşlarının geri dönməsi, ərazi bütövlüyümüzün tam təmin olunması üçün. Məhz cənab İlham Əliyevin xalqa müraciətlərindən sonra qəlbində Vətən sevgisi gəzdirən hər bir Azərbaycan övladı bu mübarizədə canından, qanından keçməyə hazır olduğunu nümayiş etdirdi, bu gün də etdirməkdədir". Bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.

Onun sözlərinə görə, gənclərimiz, yaşlılarımız - hər kəs öz dövlətinə, Ordusuna inanır və əbəs deyil ki, biz Qarabağ cəbhəsindən hər gün xoş zəfər xəbərləri alır, qələbənin elə də uzaqda olmadığını bilirik: "İndi dövlət güclənib, vəziyyət müsbət istiqamətdə 90-cı illərin əvvəlləri ilə müqayisəolunmaz dərəcədə dəyişib. Bu gün Azərbaycan müasir, güclü, qüdrətli, dünya miqyasında öz sözünü deyən, təşəbbüslərlə çıxış edən bir ölkəyə çevrilib və bu ölkənin Lideri cənab İlham Əliyev zamanında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kursa uyğun siyasət qurdu, onu inkişaf etdirdi və gördüyümüz kimi, ölkəmiz regionda ən qüdrətli dövlətlərdən birinə çevrilib, bir sıra mühüm siyasi, iqtisadi hadisələrdə söz sahibi olaraq çıxış edir".

"Artıq belə nəticə də çıxara bilərik ki, qalib Azərbaycan Ordusunda xidmət etmək, düşmənə layiqli cavabını vermək üçün gənclər Səfərbərlik və hərbi xidmətə çağırış üzrə Xidmətin şöbələri qarşısında növbəyə düzülürlər", deyən Bəhruz Quliyevə görə, halbuki, 90-cı illərdəki vəziyyət başqa cür idi: "Gəncləri küçələrdən tutub, zorla cəbhəyə yollayırdılar, xaotik bir vəziyyət yaranmışdı. Nə ailələri xəbər tuturdu, nə də onlar doğru-dürüst hərbi hazırlıq keçirdilər".

Ekspert bildirib ki, bu gün peşəkar, ən müasir silahlarla silahlanmış, bütün standartlara cavab verən Silahlı Qüvvələrimiz var, ordumuz işğalçı düşməni məhv etmək, torpaqlarımızı azad etmək iqtidarındadır: "İnsanlarımız könüllü olaraq Vətənə xidmətə getmək istəyirlər, ölməyə deyil, öldürməyə hazır olduqlarını nümayiş etdirirlər. Hətta şəhidlik amilini də nəzərə alaraq, bunu sevə-sevə qəbul edirlər, bilirlər ki, düşmən mütləq torpaqlarımızdan tam olaraq qovulacaq". Baş redaktor bildirib ki, Prezident İlham Əliyev həm xalqının Lideridir, həm də Ali Baş Komandan olaraq böyük Sərkərdədir: "Xalqımız öz Sərkərdəsinə, Liderinə güvənir və onun ətrafında sıx birləşərək yalnız və yalnız düşmən üzərində qələbə qazanmağa, bayrağımızın Xankəndidə, Şuşada və bütün işğalda olan rayonlarımızda dalğalanmasına doğru irəliləyir".

## "Erməni təxribatlarına əvvəl-axır bu cür cavab verilməli idi"



"Ermənilər özləri üçün bir yalan uydurur, onu həqiqət kim qəbul edir, sonrakı nəsillərin beyninə yeridirlər. Gələn nəsil də təbii ki, bütün yalanları həqiqət kimi başa düşür. Baxın budur erməni xisləti. Paşinyan artıq ikinci dəfədir ki, BBC-nin müxbirləri qarşısında biyabırçı vəziyyətə düşür və bu da təbiidir. Çünki BBC müxbirlərinin verdiyi suallar çox məntiqlidir və buna görə də suallar qarşısında aciz qalır. BBC müxbirinin "Bura beynəlxalq hüquqla Azərbaycan torpağıdır, siz buna necə baxırsız?", sualına Paşinyanın "Ermənistan Azərbaycan torpaqlarını işğal etməyib" kimi cavab verib. Bu qədər həyasızlıq olar? Bəs onda biz illərdir niyə danışıqlar, indi isə müharibə aparırıq?". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, professor Ziyafət Əsgərov deyib.

Deputatın sözlərinə görə, Paşinyanın dediyi heç bir fikrin məntiqi əsası yoxdur: "2018-ci ildə Paşinyan hakimiyyətə gəldikdə belə bir ümid var idi ki, Ermənistanın işğalçılıq siyasətində dəyişiklik ola bilər: "Hətta cənab prezident İlham Əliyev də bir çıxışında dedi ki, Paşinyan hakimiyyətə gəldiyi ilk vaxtlarda bizə siqnal ötürüb və çox sıxışdırıldığını qeyd edərək ona vaxt verilməsini, bu məsələnin həlli üçün çalışacağını bildirib. Sonra məlum oldu ki, Paşinyan əvvəlki siyasi rəhbərlikdən nəyinki fərqlənmir, onlardan da pisdir. Əvvəlki siyasi rəhbərliyin dövründə müəyyən prinsiplər razılaşdırılmışdı və o istiqamətdə də işlər gedirdi. Baxmayaraq ki, onlar da "status-kvo"nu uzadırdılar. Lakin Paşinyan "Qarabağ Ermənistandır" deməklə həmin prinsiplərin üzərindən xətt çəkdi. Bununla da dayanmadı və təxribatlar törətməyə başladı. 2020-ci ilin iyul ayında Tovuz istiqamətində təxribat törədildi, daha sonra diversiya qrupu göndərdi, ən sonda isə sentyabrda yenə təxribata əl atıldı. Biz bu təxribatlara nə qədər dözməliyik? Əvvəl-axır bunlara cavab verilməli idi. Ona görə də biz əks-hücuma keçdik və öz torpaqlarımızı azad edə-edə irəliləyirik".

Komitə sədri bildirib ki, biz Vətən müharibəsi aparırıq və hesab edirəm ki, vətənimizin azadlığı uğrunda apardığımız mübarizədə qalib gələcəyik: "Bizim işimiz haqq işidir. Bizim əsgərimiz xilaskarlıq uğrunda mübarizə aparır. Son günlər Paşinyan yeni bir fikir hallandırır ki, əgər Azərbaycan da razılaşsa mən güzəştə getməyə hazıram. Azərbaycan tərəfi 30 il Ermənistana güzəşt edib danışıqlara getdi. İndi biz hansı güzəşti etməliyik? Azərbaycanın şərtlərini cənab Prezident açıqca bəyan edib. Erməni tərəfi qoşunlarını işğal olunmuş torpaqlardan çıxarır və Azərbaycan xalqından üzr istəyir. Ondan sonra isə hansısa danışıqlardan söhbət gedə bilər. Mən çox təəssüf edirəm ki, Minsk Qrupunun həmsədrləri bu 30 il ərzində heç bir iş görmədilər. Əksinə bu azğınlaşmış, quduzlaşmış iti daha da qızışdırıb üstümüzə saldılar. Ona görə də, işlərin axırı bura gəlib çıxdı".

Z.Əsgərov vurğulayıb ki, Paşinyan küçədən hakimiyyətə gəlmiş bir adamdır: "Küçədən gəlmiş bir insandan siyasi rəhbər olmaz. Siyasətçi siyasi elitadan gəlməlidir. O, hay-haray salaraq küçədən hakimiyyətə gəldi. Lakin unutmaq olmaz ki, küçə başqa, siyasət tamam başqa anlayışlardır. Paşinyan artıq siyasi reallıqları gördükcə çaşdı. Hesab edirəm ki, bu adam nə siyasətdən, nə iqtisadiyyatdan, nə sosial siyasətdən, nə xarici siyasətdən, beynəlxalq münasibətlərdə hansı hadisələrin baş verdiyindən xəbərdar deyil və bunların heç birini düzgün qiymətləndirə bilmir. Bütün bunlara görə də, hazırkı rəzil vəziyyətə düşüb. 5 dəfə Rusiya Prezidentinə zəng edərək yalvarıb ki, kömək et. Həmçinin Fransa, ABŞ prezidentlərinə kömək üçün yalvarır. Belə olan halda ortaya bəzi suallar çıxır. Əgər sən yalvaracaqdınsa, gücün bundan ibarət idisə, niyə təxribatlar törədirdin? Ona görə də bir daha qeyd edirəm bu məsələdə Azərbaycan sonuna qədər haqlıdır. Biz haqqın, beynəlxalq hüququn yanındayıq. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Möhtərəm Ali Baş Komandanımızın başçılığı altında qələbə bizimlədir".

*Aysel Məmmədova*

## Vüqar Rəhimzadə: "Milli birlik və həmrəylik Azərbaycanın bugünküsiyasi palitrasının reallığıdır"



"Son illərdə Azərbaycanda bir çox sahələri əhatə edən geniş islahatlar həyata keçirilir. Xüsusilə 2019-cu ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sistemli, kompleks xarakterli islahatlar ölkəmizin dinamik inkişafını təmin edib. Ölkəmizin iqtisadi imkanları genişlənib, sosial sahədə inqilabi qərarlar qəbul olunub ki, bu da vətəndaşların həyat şəraitimiz əsaslı şəkildə yüksəlməsinə imkan verib". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanda siyasi, iqtisadi islahatlarparalel şəkildə aparılır və həm konseptual, həm də struktur xarakteri daşıyır. Əlbəttə ki, islahatlar çərçivəsində siyasi sistemin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılır: "Ötən ildən başlayaraq dövlətimizin başçısının həyata keçirdiyi islahatlar kursu çərçivəsində siyasi sistemin yeni konfiqurasiyasının formalaşması xüsusi əhəmiyyət kəsb edirdi. Hakimiyyətin hər üç qolunda - qanunvericilik, icra və məhkəmə-hüquq sistemlərində islahatlar yeni hədəflərin gerçəkləşməsini şərtləndirirdi. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, Milli Məclisdə kadr islahatlarının həyata keçirilməsində, həmçinin bir sıra şöbələrin birləşdirilməsində, eyni zamanda, yenilərinin yaradılmasında məqsəd qarşıya qoyulan hədəflərə çatmaq, yeni prioritetlər müəyyənləşdirmək idi. Prezident Administrasiyasında həyata keçirilən dəyişiklik nəticəsində isə Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da hakimiyyətin siyasi islahatları daha da təkmilləşdirilməsində son dərəcə maraqlı olmasından xəbər verirdi.Artıq bu gün sözügedən şöbənin səmərəli fəaliyyəti nəticəsində ümummilli məsələlərdə siyasi birlik mühiti formalaşıb. Ölkəmizdə demokratik təsisatlar möhkəmləndirilir, siyasi plüralizm və çoxpartiyalı demokratik siyasi sistem inkişaf etdirilir. Hazırda ölkəmizdə yeni siyasi konfiqurasiya yaranıb və siyasi palitrada təmsil olunan siyasi qüvvələr arasında müsbət dialoq mühiti bərqərar olub. Təsadüfi deyildir ki, 27 sentyabr tarixində Ermənistan hərbi birləşmələrinin növbəti təxribatına cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatından sonra 51 siyasi partiya orduya və Ali Baş Komandana dəstək bəyanatı imzaladılar".

Vüqar Rəhimzadə əlavə edib ki, müstəqilliyimizin bərpasından sonraAzərbaycanda ilk dəfə olaraq 51 partiya vahid təşəbbüslə çıxış etdi, ölkə Prezidentinin Vətənin müdafiəsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda titanik fəaliyyətini birmənalı dəstəklədi, dövlətimizin başçısının haqlı mövqeyini və həyata keçirdiyi bütün tədbirləri sonadək müdafiə edəcəklərini yekdilliklə ifadə etdi. Bütün bunlar da onu göstərir ki, bu gün siyasi partiyalar dövlətçiliyimizin təməl prinsiplərinin müdafiəsi və ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə milli birlik və həmrəylik nümayiş etdirirlər. Artıq milli birlik və həmrəylik Azərbaycanın bugünkü siyasi palitrasının reallığına çevrilib.

# "Dünya KİV-ləri Prezident İlham Əliyevin fikirlərinə daha çox önəm verir"



***"Azərbaycanın haqq işi olan Dağlıq Qarabağla bağlı apardığı fəaliyyətini dünya səviyyəsində çatdıran şəxs məhz cənab prezident İlham Əliyevdir. Çünki onun fikirləri ən etibarlı fikir sayılır. Həmçinin dövlət Başçısı bir məsələyə fikir bildirirsə, bu bütün deyilən sözlərin, edilən şərhlərin hər birindən daha üstündür. Bu baxımdan cənab Prezidentin dünya KİV-lərinə, televiziya kanallarına verdiyi müsahibələr çox dəyərlidir və yüksək qiymətləndirilir. Sentyabrın 27-dən bu yana Azərbaycanın həyata keçirdiyi əks-hücum əməliyyatlarına ən böyük diplomatik dəstəyi məhz ölkə başçısı verir.***

Müsahibələrin ən önəmli tərəfindən biri də odur ki, Azərbaycanın işinin haqq işi olduğunu, 30 ildir təcavüzlərə məruz qalan tərəfin məhz Azərbaycan olduğunu, ən önəmlisini cənab Prezidentin kəskin və faktlara əsaslanan fikirlərlə erməni yalanlarını ifşa etdiyini bununla görürük". Bunu SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib.

Politoloq bildirib ki, buna görə də, məhz dünya televiziya kanalları və KİV-ləri cənab prezident İlham Əliyevin fikirlərinə daha çox önəm verirlər: "Həmçinin bir çox sosial media istifadəçilərinin şərhlərindən də bunu asanlıqla görmək olur. Belə ki, bir çox xarici vətəndaşlar məhz bu məsələdə şərh verərkən cənab prezident İlham Əliyevin fikirlərinə istinad edirlər. Çünki ölkə Başçımız tərəfindən səsləndirilən fikirlərin hər birinin əsasında həqiqət durur və bir xarici vətəndaş kimi həmin fikirlərin doğruluğunu yoxlamaq elə də çətin iş deyil. İstər Xocalı soyqırımı, istər ermənilərin törətdikləri qeyri-insani əməlləri, terror aktları hansı ki, bunların hər birinin fotoşəkillərini, video formatda görüntüsünü, sənədlərini internet vasitəsilə əldə etmək çox asandır".

Ekspertin fikrincə, Paşinyanın çıxışlarına fikir verdikdə isə burada bir çox yalan, iftira, manipulyasiya, təsdiqini tapmamış iddialardan başqa bir şey görmək mümkün deyil: "Məhz Paşinyanın bu cür çıxışları dünya siyasi arenasında və dünya ictimaiyyətində əsl yalançı simasını açıb. Paşinyan söylədiyi hər bir fikirdə özünün nə dərəcə savadsız və primitiv düşüncəyə sahib olduğunu göstərir. O, dünyada bir diplomat kimi yox, yalançı, iftiraçı bir nümayəndə kimi ad qazanıb. Əslində mən cənab Prezident İlham Əliyevin siyasi savadını, diplomatik gedişlərini, dünya dövlətləri arasındakı prestijini Paşinyanla müqayisə etmək istəməzdim. Lakin nə edək ki, erməni tərəfinin qarşımıza çıxara bildiyi siyasi rəhbəri rəzil gündədir".

N.Məmmədova xüsusilə qeyd edib ki, bu gün Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında prezident İlham Əliyevin müstəsna və əvəzsiz rolu var: "İstər indiyə kimi getdiyi beynəlxalq səviyyəli görüşlərdə, istərsə də hazırkı məqamda dünya mediasındakı rolu ilə bu gün Azərbaycanın haqq səsinə səs verənlərin sayı günbəgün artır. Ən əsası isə bu gün xalq cənab Prezidentin ətrafında birmənalı şəkildə birləşib və ölkə Başçısını sonuna qədər dəstəkləyir. Xalqımızın ordumuza dəstəyini də təbii ki, unutmaq olmaz. Bu cür yumruq kimi birləşmiş xalqı isə məğlub etmək mümkün deyil. Qələbə bizimlədir!".

***Aysel Məmmədova***

# "Sabah" nəşri: İşğalçının uğursuzluğu hakimiyyətdaxili panikaya səbəb olub

*İstefalar, qovulmalar, qarşıdurmalar və siyasi ölüm!*

***İşğalçı Ermənistanın və bu ölkənin marioneti - qondarma "dqr"in Qarabağ cəbhəsində aldıqları ardıcıl, ağır və sarsıdıcı məğlubiyyətləri artıq ermənilərin hərbi-siyasi dairələrində kəskin panik situasiya yaradıb. Artıq bu təlaş o qədər böyüyüb ki, həmin hal ali rəhbər orqanlarda, əsasən də güc sturkturlarında qarşılıqlı inamsızlıqlara qədər inkişaf edib.***




İşğalçıların başlarını itirməsi, hər hansı bir qərarlara gələ bilməmələri, qarşılıqlı ittihamlar üzə çıxarılmasa da, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) növbəti direktorunun istefaya göndərilməsi qeyd edilən fikirləri kifayət qədər təsdiqləmiş olur.

### "Sabah" nəşri: "İşğalçı Ermənistan Qarabağda baş verənlərin qəbzini MTX direktoruna kəsdi"

SİA xəbər verir ki, artıq bu olay qardaş Türkiyə mətbuatında da müzakirəyə səbəb olub. Belə ki, bununla bağlı Türkiyənin "Sabah" qəzetinin internet versiyasında maraqlı məqamlara toxunulub və istefanın səbəblərini MTX-nin öz işini doğru istiqamətdə qurmamaqda göstərib. Beləliklə... "İşğalçı Ermənistan Qarabağda baş verənlərin qəbzini MTX direktoruna kəsdi. "Anadolu" agentliyinin bildirdiyi son məlumatlara görə Arqişti Karamyan vəzifəsindən uzaqlaçdırıldı", türk nəşri yazır.

Nəşr əlavə edir ki, Ermənistan MTX-nin direktoru Arqişti Karamyan Ermənistan prezidenti Armen Sarkisyan tərəfindən imzalanan qərarla vəzifəsindən alınıb. Belə ki, Ermənistanın prezident administrasiyasının internet səhifəsində yer alan qərarnaməyə görə, təklifi məhz baş nazir Nikol Paşinyan verib, ancaq səbəbi barədə rəsmi heç nə deyilməyib.

### "Düşmənin çoxsaylı tankları, artilleriya, havadan müdafiə qurğuları canlı qüvvəsi ilə birgə məhv edilir"

Bu arada, Azərbaycan Ordusunun işğal altındakı Qarabağda uğurlu əks-hücum kampaniyasına başladığını və ardıcıl qələbələr əldə etdiyini yazan "Sabah" çox sayda ərazilərin işğaldan azad edildiyini də qeyd edir və düşmən tərəfinin çoxsaylı tank, artilleriya, havadan müdafiə qurğularını canlı qüvvəsi ilə birgə məhv etdiyini xatırladır.

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatlarına da istinad edən türk nəşri 27 sentyabr-8 oktyabr tarixləri aralığında Ermənistan ordusunun 260 tank və zirehli maşın, 277 top və raket sistemi, 60 havadan müdafiə sistemi, 11 qərargahını və mövqelərini, 8 silah anbarını, 180 hərbi yük avtomobilini, bir S-300 sistemini məhv etdiyini yazır. O cümlədən, Azərbaycan Ordusunun zəfərə doğru addım-addım irəlilədiyini qeyd edən "Sabah" Azərbaycan MN-nin ermənilərin işğalından qurtulan Füzuli rayonuna aid Horadiz kəndindən qaçan düşmənin tərk etdiyi zirehli avtomobillərin görüntülərini də yaydığını bildirib.

### Nikol Paşinyanın budəfəki qurbanı MTX direktoru oldu...

Lakin haşiyə olaraq onu da qeyd edə bilərik ki, Nikol Paşinyanın təklifi ilə istefaya göndərdiyi Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru Arqişti Karamyanın hansı səbəblərə görə işdən çıxarıldığı daha çox bəlli olub. Ermənistanın armenianreport saytı isə xəbər verir ki, ermənilərin baş naziri cəbhədəki uğursuzluqlarını, məğlubiyyətlərini məhz Aqrişti Karamyanın üzərinə atıb, onu "qurban" olaraq irəli verib. Daha dəqiq desək, Paşinyan guya arxa cəbhədə "satqınların" olduğunu bildirib və məhz bundan sonra MTX direktorunun istefa məsələsi qaldırılıb.

Ermənilərin baş naziri özünü təmizə çıxarmaqdan ötrü iddia edib ki,"dqr"dəki hərbçilərin mövqelərini qoyub-qaçmalarına yönəlmiş çağırışlar baş verir və MTX direktoru bunun qarşısını ala bilməyib və s. Karamyanın yerinə isə Mikael Ambarsumyanın təyin olunduğu bildirilir.

Nəticədə türk nəşrinin də yazdığı kimi, düşmən tərəfi kəskin panik vəziyyətdədir və artıq həmin vəziyyət cəbhədən hakimiyyət daxilinə də kifayət qədər sirayət edir.

***Rövşən RƏSULOV***

# Ermənistan şokda: 5 min erməni əsgər itkin düşüb



Azərbaycana qarşı müharibəyə çağırılan erməni əsgərlərinin anaları və qohumları onları nə ölən və yaralananların siyahısında, nə də cəbhə bölgəsində yerləşən hərbi hissələrdə tapa bilirlər. SİA Ermənistana məxsus KİV-lərin yayımladığı məlumata istinadən xəbər verir ki, bu məlumat Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Arsrun Ovannisyan tərəfindən də təsdiqlənib. Ermənistanın rəsmi məlumatına görə, onlar son döyüşlərdə 361 hərbçi itiriblər, lakin sosial şəbəkələrin erməni seqmentində tamamilə fərqli mənzərəni görmək mümkündür. Erməni sosial şəbəkə istifadəçiləri Azərbaycana qarşı müharibəyə zorla göndərilmiş və itkin düşmüş qohumlarının fotolarını yayırlar. "Mən qardaşımı tapa bilmirəm. O, mayordur. Axırıncı dəfə onunla 5 gün əvvəl əlaqə saxlamışıq. O, ordumuzun çox zəif olduğunu və bu savaşın onlar üçün çox çətin olduğunu söylədi. Şikayət edirdi ki, biz əsgərlərimizi normal şəkildə yeməklə təmin edə bilmirik. Bundan sonra onunla əlaqə qura bilmədik. Qardaşımın adı nə ölənlər, nə də yaralılar arasında var. Onun yerini öyrənmək üçün Müdafiə Nazirliyinə sorğu göndərdik, lakin müdafiə şöbəsində heç kim heç nə bilmir ", deyə ermənilərdən biri sosial şəbəkədə yazıb.

Sosial şəbəkələrdə bu cür yazılar yüzlərlədir. Analoji yazıların şərhlərində isə Ermənistan silahlı qüvvələrinin itkin düşmüş beş mindən çox hərbçisindən bəhs olunur. Məhz bu səbəbdən Ermənistan Müdafiə Nazirliyi buna reaksiya verməyə məcbur olub. "Bu günlərdə bəzi vətəndaşlar oğullarının fotolarını sosial mediada dərc edərək onların tapılmasına kömək istəyir. Münaqişə bölgəsində şiddətli döyüşlər davam edir. Bu da öz növbəsində həlak olanların cəsədlərinin tapılmasını çətinləşdirir. Bu savaş tamamilə fərqlidir, ilk müharibədən, ötən əsrin sonlarındakından və 2016-cı ilin Aprel döyüşlərindən fərqli olaraq bu bir kabusdur. Üzr istəyirik və buna anlayışla yanaşmağınızı xahiş edirik", deyə Ovannisyan bildirib.

Ermənistan Müdafiə Nazirliyinin rəsmi nümayəndəsinin sözləri bundan ibarət olub. O, vətəndaşlarına cəbhədə dəhşətli hadisələrin baş verdiyini açıq şəkildə etiraf edib. Ovannisyan həmçinin Ermənistan silahlı qüvvələrinin sıralarındakı böyük itkiləri inkar etməyib və yalnız vətəndaşların buna guya anlayışla yanaşmalı olduqlarını barədə danışıb.

***İnam Hacıyev***

# Separatçı liderin oğlu Qarabağda məhv edildi

***Xankəndidə 1980-ci illərin sonunda başlayan separatçı mitinqlərin əsas təşkilatçılarından olan Hraç Muradyanın oğlu Vigen Muradyan Ağdərə istiqamətində gedən döyüşlərdə məhv edilib.***



SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus mətbuat səhifələrində məlumat yayılıb. Ermənistan mediasında yayımlanan məlumatlara görə, bu informasiyanı işğalçı ölkənin müdafiə nazirliyi, eləcə də Vigen Muradyanın atası da təsdiqləyib. İnformasiyalara görə, 25 yaşlı Muradyan "könüllülər batalyonu"nda döyüşüb və Lüləsaz yüksəkliyi istiqamətində zərərsizləşdirilib. Vigen Muradyan separatçılara yardım fondu kimi tanınan "Dro Kanayan" dərnəyinin də üzvü olub. Onun 29 sentyabrda öz "könüllü dəstəsi" ilə Dağlıq Qarabağa gəldiyi barədə də məlumatlar var.

***İnam Hacıyev***

# Zəfər salnaməsi

***Ermənistan tərəfindən 1988-ci ildən yürüdülən işğalçı planın nəticəsində bütün qanunlar, insan hüquqları kobud şəkildə pozulmuşdur. Qaçqın və məcburi köçkünlər ölkənin 69 şəhər və rayonunda müvəqqəti məskunlaşmış, 700 min nəfər məcburi köçkün isə 1600-dan çox sıx məskunlaşma obyektində yerləşmişlər. 1990-cı il yanvarın 20-də gecə xüsusi qəddarlıqla, misli görünməmiş vəhşiliklərlə Bakının zəbt olunması təmin edildi.***

Bu qanlı aksiya nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Bu sözün həqiqi mənasında “ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş “ qanlı cinayət idi.









Necə zəbt olundu? Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingenti etirazçılara-əli yalın adamlara divan tutmaqla Bakının küçələrində sosial-siyasi və psixoloji cəhətdən dəhşətli ab-hava yaratmaqla. Bu rüsvayçı akt fövqəladə vəziyyət elan edilmədən reallaşdırıldı.

Ordumuzun əzmi, qüdrəti nəticəsində hər gün tariximizin şanlı səhifələrinin yazıldığı günlərdir.

İllərdir torpaqlarımızın itgisi acısını Azərbaycan ordusunun zəfər yürüşünün gətirdiyi qürur, qələbəyə inam, əzm hissi üstələyib.

Şuşamızda, Xankəndində bayrağımızı ucaldacağımız günü səbrsizliklə gözləyirik.

Bu gün bütün millət ordudur, millət o ruhun içərisindədir. Hər tərəf Azərbaycan bayrağı ilə bəzədilmişdir.

İki ordu qarşı-qarşıya durmuşdur.

Biri xeyirin, digəri isə şərin ordusudur. Erməni ordusu pisliyin, şeytanın, zalımın ordusudur.

İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir və bu, şəxsiyyət dəyərlərini istisna etmir. Bizim şəraitimizdə bu, götür-qoy edilmiş yoldur. Zəif cəmiyyətə malik güclü demokratik dövlət ola bilməz. Dövlət maşınını ətalətdən, dövlət aparatını durğunluqdan, şəxsiyyəti isə hakimiyyətin qanunsuz hərəkətlərindən ancaq cəmiyyətin mükəmməl həyatı qoruya bilər

Azərbaycan ordusu haqqın, ədalətin ordusudur.

Fransa Prezidenti Ermənistan-Azərbaycan təmas xəttində döyüşlərin davam etməsindən narahatlıq hissi ifadə edərək atəşkəsin bərpa edilməsi və tezliklə danışıqların aparılmasına çağırıb.

Cənab prezident İlham Əliyev bildirmişdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxsimiz həlak olub, 60-dan çox adam yaralanıb, yüzlərlə ev dağıdılıb.

Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş ərazilərimizin bir hissəsini işğaldan azad edib.

Ermənistan danışıqlar prosesinin pozulması istiqamətində addımlar ataraq bu prosesə böyük zərbə vurub. Prezident İlham Əliyev vurğulayıb ki, danışıqların pozulması, eləcə də silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında da Ermənistanın xalqımıza qarşı apardığı işğalçılıq siyasətindən danışaraq söyləmişdir: “Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, -bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, -Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər”.

Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektlərini atəşə tutması nəticəsində 200-dən artıq yaşayış evinə, həmçinin, çox sayda mülki obyektə külli miqdarda ziyan vurulmuş, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, xeyli heyvan tələf olmuşdur.

Paşinyan hökuməti isə silahlı qüvvələrini məğlubiyyətdən xilas etmək, işğal etdiyi ərazilərdə mövcudluğunu saxlamaq üçün havadarlarının təcili müdaxiləsi ilə Azərbaycan Ordusunun hücumlarını dayandırmağı yeganə çıxış yolu sayır.

Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının 5-ci dağatıcı alayının Ağdərə yaşayış məntəqəsində yerləşən qərargahına zərbə endirilmiş, Ordumuz Ermənistan silahlı qüvvələrinin Füzuli istiqamətində yerləşən 4-cü taborunu ağır artilleriya atəşinə məruz qalmış, hərbçilərimiz Şuşakənddə düşmənin İrəvandan yenicə gətirdiyi S-300 raket kompleksini dəqiq atəşlə, həmçinin Azərbaycan Ordusunun bölmələri tərəfindən Tonaşendə düşmənin 2 tankı məhv edilib.

Azərbaycan Ordusu düşmənin silahlı bölmələrinin təxribat xarakterli hücumlarına qarşı taktiki döyüş və əks-hücum əməliyyatları həyata keçirmişdir. Əməliyyat zamanı xeyli düşmən hərbçisi məhv edilib və onlara dəstək üçün gələn digər erməni əsgərləri silah-sursat, hərbi texnika və avtomobillərini ataraq geri qaçmışlar.

Ağdərə (Madagiz) istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağatıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilmişdir.

Düşmənin 2 ədəd “OSA-AKM” zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 “Uraqan” yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 4 ədəd “D-20” haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilib və sıradan çıxarılıb.

Ötən günlərdə düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib.

Ordumuz Madagiz istiqamətində hakim yüksəklikləri azad edib. Burada düşmənin hərbi hissəsində çaxnaşma və atışma yaranıb. Erməni könüllüləri müxtəlif bəhanələrlə döyüşə girməkdən imtina edirlər. Bunun əvəzinə qadın batalyonunun yaradılmasına qərar verilib. Cəbrayıl, Füzuli istiqamətində ordumuz düşməni geri çəkilməyə məcbur

# Zəfər salnaməsi

edib və irəli gedib.

Ermənistanın baş naziri “Facebook” hesabında öz xalqını təşvişə salacaq formada paylaşımlar etmişdir. Paşinyanın yalan paylaşımına görə, hansısa dronlar İrəvan üzərində hərəkət edirlər. Paşinyan bu dronların vurulması ilə bağlı da paylaşımlar etmişdir. Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir.

Dövlətimizin İlham Əliyev bu fikirləri “Əl-Cəzirə” televiziya kanalına müsahibəsində danışıqlar və ilkin şərtlər barədə danışarkən bildirmişdir: “Bizə gəldikdə, biz həmişə danışıqlara hazırıq. Biz heç vaxt danışıqlardan imtina etməmişik. Əvvəlki illərdə danışıqlar prosesində çətin vaxtlar yaşamışıq. Heç də hər şey rəvan getmirdi. Lakin Ermənistanın əvvəlki rəhbərləri ilə bizim prosesimiz olub və biz mərhələli yanaşmanı işləyib hazırlamışdıq. Əks halda, biz bu qədər uzun illər bu prosesdə iştirak etməzdik. Bu, faydasız vaxt deyildir. Hesab edirəm ki, biz çox böyük irəliləyişə nail olmuşduq. Mən bu prosesdə 2003-cü ildən bəri iştirak edirəm. Mən Ermənistanın iki sabiq prezidenti ilə işləmişdim. Biz irəliləyişə nail olduq, bu, asan deyildi. Bizdə çox müxtəlif fikirlər var idi, lakin biz mərhələli şəkildə irəliləyirdik və indiki məqamda əldə etdiklərimizi işləyib hazırlamışdıq.

Paşinyan hakimiyyətə gəldikdən sonra nəinki ondan əvvəl olanları məhv etdi, o, ondan əvvəl sanki Ermənistanın mövcud olmadığı və indi yeni Ermənistanın yaradıcısı kimi davranmaq istəyirdi. O, işlənilmiş bütün prinsipləri məhv etdi. Buna görə bütün məsuliyyət onun və onun hökumətinin üzərindədir”.

Paşinyanın ölkəyə, bütün beynəlxalq tədbirlərdə yalan danışdığı dünya ictimaiyyətinə bəllidir. Paşinyan Azərbaycan Prezidentinin qarşısında yenə də aciz duruma düşmüşdür.

Cənab prezident söylədiyi kimi: “Bu gün Azərbaycan Ordusunda da, ölkə ictimaiyyətində də böyük ruh yüksəkliyi var. Dövlət başçısının söylədiyi kimi, qanlı döyüşlər Azərbaycan xalqı üçün həqiqət anıdır. Məhz bu günlərdə Azərbaycana dəstək olan ölkələr, təşkilatlar, insanlar da heç vaxt unudulmayacaq. Müxtəlif ölkələrdə yaşayan dünya azərbaycanlıları, eləcə də qardaş Türkiyədən, Ukraynadan, Pakistandan olan gənclər Prezidentə məktub yazaraq torpaqlarımızın azadlığı uğrunda gedən savaşlara könüllü qoşulmaq istədiklərini bildirirlər. Cənab İlham Əliyev də bütün bunları çox yüksək dəyərləndir”.

Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında da açıq şəkildə qeyd etdi ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır: “Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir”.

Cənab prezident BMT tribunasından çıxış edərkən öz fikirlərini bildirmişdi.

Belə ki, sentyabr ayının 29-da “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırarkən dövlət başçısı son günlər baş verən hadisələr barədə ətraflı məlumat vermişdi.

Dövlət başçısı bildirdi ki, ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb: “Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır”.

Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun daha kəskin, daha sərt üzü ilə qarşılaşdı. 32 ildir səbr edən, dözüm göstərən Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu bir andaca yenidən səfərbər oldu, düşmənin cavabının yalnız müharibə, hərb, savaş olduğuna qərar verdi. İşğal olunmuş torpaqlara qayıtmaq eşqi, həvəsi ilə alışıb-yanan Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu Vətən müharibəsinə başladı. Bəli, məhz Vətən müharibəsinə. Adına əks-həmlə, əks-hücum əməliyyatı desək də, bu, artıq Vətən müharibəsidir!

Həmçinin AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı olaraq onu da qeyd tmək istərdim ki, İnstitutumuzun direktoru professor İlham Məmmədzadə qəlbi cəbhədə igidlik göstərən əsgərlərimizin qəlbi ilə, vətən eşqi ilə döyünür.

Gərgin axtarışları ilə fundamental elmlər sahəsində unikal yeniliklərə imza atan görkəmli alim həm də yüksək idarəçilik keyfiyyətləri, ictimai-siyasi fəallığı, böyük vətəndaşlığı ilə seçilir.

Böyük alim haqqında deməyə uzun illərin müşahidələrimdən doğan fikirlər mənə haqq verir

Bu yurd, bu torpaq babalarımızdan bizlərə əmanətdir.

İgidlərimizin qanıyla suvarılıb bu torpaq!

Azərbaycan Rspublikası silahlı Qüvvələr Hərbi Akdmiyasının proffsoru bir gənc olaraq hər zaman müharibəyə gtməyə hazır olduğunu cənab przidntimizin yanında olduğunu bütn gənclər adından bildirirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bugünün gəncliyinə ünvanlanmış: “Gənclərə müraciət edirəm! Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm” sözləri əslində Azərbaycan gəncliyinin qarşısında açılan aydın üfüqlərdir.

Möhtərəm prezidentimizin bu çağırışından gəncliyə olan böyük inamından və sevgisindən ilham alaraq gənclərimiz hər biri doğma Qarabağımızı düşmən əsarətindən xilas etmək üçün hər an döyüşə atılmağa hazır olmalıdır.

“Gənclər əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq”.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin ölkə gəncliyinə inamla dolu bu sözləri həm də gənclərimizin böyük potensialından xəbər verir.

Belə bir unudulmaz nəğmə var. Hardan başlanır Vətən?

Böyük insanların ürəyindən, qəlbindən başlanır Vətən.

Nəbzi Vətənlə döyünən Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qismən səfərbərliklə bağlı sərəncamını yüksək əhvali-ruhiyyə ilə qarşılanır: “Biz birlikdə güclüyük!”, “Biz zəfər çalacağıq!” Çünki bizim işimiz haqq işidir. Vətən sevgisi, yurd təəssübü milli mənlik şüurunun təməl daşlarıdır!”

Vətən gözdür, biz kiprik,
Gözümüzün keşiyini çəkirik.

Şəhidlər, bir an düşünmədən canını Vətən, torpaq yolunda fəda edən igidlərimizdir!

Düşməndən qisas almaq əzmində vuruşan, qeyrətli Vətənin ən layiqli oğulları. Tarix boyu Azərbaycan oğulları, Şah İsmayılın, Koroğlunun soyundan gəlmişdir.

Vətən üçün ölməyə dəyər!

Vətənin dar günündə düşmən qarşısına önə atılaraq, sinənisini sipər etmişlər.

Bu gün bütün evlərin eyvanları yollar üçrəngli bayrağımızla bəzənmişdir.

Vətən torpağı uğrunda şəhid gedən oğullarımız o əqidəylə, o saflıqlan sonuna qədər getməsəydilər, onlara şəhidlik nəsiblik olmazdı.

Şəhidlik elə bir zirvədir ki, onu həm gərək ilahidən sənə qismət olunsun, həmçinin özün ona doğru can atasan, o müqəddəs məqamı arzu etmiş olasan.

Şəhidlərimiz bu gün adlarını qürurla çəkdiyimiz milli qəhrəmanlarımız torpaq uğrunda özləri o zirvəni qazanaraq, o torpağın namusunu öz namusları bilərək, qəlblərin də ana sevgisi çiyinlərində vətən yükü, vətən möhləti savaşa atılmışlar.

Uca zirvəni qazandıqlarından tarix hər zaman onların ruhu önündə baş əyəcəkdir.

15 yaşlı Bahar, 13 yaşlı Şəhriyar. Bir mərmiylə bir ailədən gedən 5 həmvətənimiz kimi...

Balaca Fariz kimi, Zəhra kimi... Nurlar içində yatsınlar! Çox az qalıb!

Allah xalqımızı, ordumuzu və Prezidentimizi qorusun!

Övlad ata-anasıyla öyündüyü kimi mən də sənin dünənin, bu günün, sabahınla öyünür, qürur duyuram əziz vətənim!.

Qoy bu günlərdə hər bir vətən övladının arzuları, ümidləri, istəkləri çin olsun. Şəhidlərimizin ruhu şad olsun.

Vətən torpaqları işğaldan azad olunsun.

Ey Ən Qadir olan Allahım yardım edib dəstəkləyən cəsur və Şanlı Azərbaycan ordusunun qollarına qüvvət ver.

Ey Qalib olan əsla məğlub olmayan Allahım cəsur Azərbaycan əsgərinə qələbə nəsib et!

Amin!

Azərbaycan Ordusunun şanlı qələbəsi, igid əsgərlərimizin məğrurluğu hər kəsdə ruh yüksəkliyi yaradıb. Ordumuz, xalqımız qələbəyə köklənib. Böyük Qələbəyə az qalıb.

İravnuk” qəzeti yazır ki, Azərbaycan Ordusu addım-addım Xankəndiyə yaxınlaşır: “Xankəndini vahimə bürüyüb. Hər gün minlərlə insan buranı tərk edir. Acı həqiqət olsa da, vurğulayaq ki, 30 ildən sonra Azərbaycan Qarabağa yenidən qayıtmağa çox yaxındır. Özü də bu məsələdə Azərbaycana dəstək verənlərin sayının artması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Ermənistanı

İlham Əliyev qarşısında kim məğlub duruma saldı? Çox təəssüf ki, Ermənistan Azərbaycana qarşı müharibədə uduzur, Paşinyan isə bu məsələ ilə bağlı hansısa ciddi mövqe ortaya qoya bilmir”.

“Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik” - deyən cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin mahir sərkərdəliyi ilə düşmənin təxribatlarına cavab olaraq əks-hücum əməliyyatlarına başlayan şanlı ordumuz illərlə həsrətlə boylandığımız, qürurumuzun və şərəfimizin Murov zirvəsinə üçrəngli bayrağımızı sancıb.

Dövlət başçısının bu həssas və şərəfli günlərdə verdiyi müdrik, qətiyyətli qərarlar xalqımız tərəfindən rəğbətlə, coşquyla qarşılanır. Ali Baş Komandanımızın sərkərdəliyi ilə şanlı ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələr, uğurlu döyüş əməliyyatları, qazanılmış qələbələr bizi bütün tarixi torpaqlarımıza hər saat, hər an daha da yaxınlaşdırır.

Dövlət başçısı da dedi ki, bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir xalq onlara dəstək olmalıdır: “Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib”.

Cənab prezident, Ali baş komandan İlham Əliyev “Twitter”də məlumat paylaşıb: “Bu gün Azərbaycan Ordusu Tərtər rayon Talış kəndini, Cəbrayıl rayon Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir. Qarabağ Azərbaycandır!”

Xalqımızın qəlbi Azərbaycan əsgəri ilə döyünür. Bakıdan səngərə kimi hamı qələbə əhvali-ruhiyyəsindədir. Azərbaycan Ordusu isə şərəfli missiyasını bitirənədək dayanmayacaq. Ali Baş Komandanın söylədiyi kimi, biz öz torpaqlarımızda vuruşuruq. Erməni əsgəri Azərbaycan torpağından rədd olana qədər mübarizəmiz davam edəcək. İlham Əliyevin qətiyyəti və Ordumuzun rəşadəti böyük qələbəni sürətlə yaxınlaşdırır. İllər keçəcək, 2020-ci ilin bu tarixi qalibiyyət günləri ilə gələcək nəsillərimiz haqq işimizdə qazandığımız bu qələbə ilə, canlarını fəda edən qəhrəmanlarımızla qürurlanacaq, fəxr edəcək...

***Günel Məlikli***
***Silahlı Qüvvələr Hərbi Akadmiyasının professoru, AMEA YAP İdarə heyətinin üzvü, Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri***







# Rusiyanı Azərbaycan və Ermənistanla nə bağlayır?

***Dünyanın 2 qüdrətli fövqəldövlətindən biri olan Rusiya Federasiyası həm Azərbaycanla, həm də Ermənistanla bütün sahələrdə əməkdaşlığa malikdir. Siyasi, iqtisadi, elmi-texniki, hərbi, mədəni və humanitar əlaqələr bir ölkənin və xalqın digərinə münasibətinin formalaşmasında əsas rol oynayan faktorlardır. Bəs Rusiya ilə Azərbaycanın, Ermənistanın müxtəlif sahələrdə əməkdaşlığı, əlaqələri necədir? Dünən oxucularımıza hərbi sahədə əməkdaşlıq və hərbi texnika təchizatı ilə bağlı müqayisəli yazı təqdim etmişdik. Bu yazıda Rusiya dövlət və qeyri-hökumət orqanlarının məlumatları, rəsmi statatistik göstəricilər ilə bəzi digər sahələrdə müqayisələr aparacağıq.***

## Rusiyada azərbaycanlıların və ermənilərin sayı

Rusiyada azərbaycanlıların sayı ermənilərdən 2 dəfə çoxdur, ölkədə 2 milyondan artıq azərbaycanlı, 1 mlyondan artıq erməni yaşayır.

Azərbaycanlıların daha sıx yaşadığı yerlər Tümen, Dağıstan, Xabarovsk və Moskva regionlarıdır. Ermənilərin 50 faizə yaxını Rusiyanın cənubunda yaşayır- Krasnodar, Stavrapol və Rostov vilayətlərində. Sonrakı yeri Moskva turur.

## Ruslar hansı ölkədə daha çox yaşayır?

Rusların sayı Azərbaycanda Ermənistanda olduğundan 10 dəfə çoxdur. Azərbaycanda 120 mindən artıq rus yaşayır. Burada rusların kompakt yaşadığı kəndlər var, paytaxtda rus dram teatrı, 350 dən çox rusdilli məktəb, universitet, provaslav kilsəsi, mədəniyyət evi və s. sosial-mədəni obyektlər fəaliyyət göstərir, rus dilində qəzet və jurnalları çıxır, tv və radio verilişləri yayımlanır.

Ermənistanda isə rusa rast gəlmək çətindir. Burada əhalinin 99 faizə yaxını ermənidir. Ölkədə rəsmi olaraq 12 min rus qeydiyyatdadır ki, onların da çoxu faktiki olaraq Rusiyaya və ya Avropaya köçüb. Ölkədə rus icmasına məxsus demək olar ki, heç nə yoxdur.

## Rusiya kiminlə daha çox ticarət edir?

2019-cu ildə Rusiyanın Azərbaycanla ticarət dövriyyəsi Ermənistandan 600 milyon dollar çox olub.

Rusiya Azərbaycana ixracında əsasən qida sənayesi məhsulları, maşın və texnika malları, nəqliyyat vasitələri, tibbi texnika və pereparatlar, aqrar texnika və kənd təsərrüfatı məhsulları, müxtəlif metallar və tikinti materialları üstünlük təşkil edir. Azərbaycandan idxalda isə əsasən, müxtəlif ərzaq məhsulları, kimya məhsulları, mineral maddələr, tekstil və dəri məmulatları idxal edir.

Rusiya Ermənistana əsasən, mineral məhsullar, nəqliyyat vasitələri və qida məhsulları ixrac edir. Ermənistandan idxalda isə qiymətli metallar də daşlar üstünlük təşkil edir.

## Rusiyanın iqtisadi və investisiya göstəriciləri

Rusiya Azərbaycan iqtisadiyyatına 5 milyard dollardan artıq investisiya yatırıb. Ermənistana isə 2 milyard dollar civarında.

Azərbaycanda Rusiya kapitallı şirkətlər 1000-ə yxındır ki, bu bütün xarici kapitallı şirkətlər arasında 10 faiz təşkil edir. Azərbaycanda işləyən ən böyük Rusiya şirkətləri "Qazprom", "Transneft" və "Lukoyl"dur. Rusiyadan ən çox neft alan 20 şirkət arasında ARDNŞ də var (2,2 milyon ton- 1 milyard dollar dəyərində). ARDNŞ Rusyadakı Antipinskiy neftayırma zavodunda 9,6 faiz paya malikdir.

Ermənistanda işləyən Rusiya şirkətlərinin sayı 2 mindən çoxdur. Ən böyükləri "Qazprom", "Rusiya Dəmiryolları", BTB", "Rusal" və Rosatom"dur.

## Rusiyalılar hansı ölkəyə daha çox gedib-gəlir?

Rosturizm Agentliyinin məlumatına görə, vətəndaşları Rusyaya daha çox və teztez gedib-gələn ölkələr arasında Azərbaycan 4-cü yeri tutur.

Ermənistan bu göstəricidə 9-cu yeri tutur.

Azərbaycan rusiyalıların gedib-gəldiyi ölkələr arasında 17-ci yeri, Ermənistan isə 21-ci yeri tutur.

Müxtəlif sorğulara görə, müxtəlif səbəblərdən xarici ölkələrə gedib-gələn rusiyalıırın bəyəndikləri ölkələr və xalqlar arasında Azərbaycan Ermənistanı xeyli qabaqlayır.

# Rusiyada təhsil alan və işləyənlərin müqayisəsi

Rusiya universitetlərində təhsil alan azərbaycanlıların sayı 15, 5 in nəfər, ermənilərin sayı 13,3 min təşkil edir. 2019-cu ildə Rusiyada işləməyə gedən azərbaycanlıların sayı 195 min nəfərə yaxın, ermənilərin sayı isə 210 min nəfərdən çox olub.

Göründüyü kimi, hərbi sahədə oıduğu kimi, digər sahələrdə də Azərbaycanla Rusiyanın əməkdaşlığı, humanitar və mədəni əlaqələri Ermənistanla olduğundan yüksəkdir.

***Elçin Bayramlı***

*Yazıda Rusiya Dövlət Statistika Komitəsinin, həmçinin, bəzi sosioloji və iqtisadi tədqiqat mərkəzlərinin məlumatlarından istifadə olunub.*

# "Ermənistanın ordusunda, cəmiyyətində demoralizasiya prosesi dərinləşməkdədir"



"Azərbaycan ordusu əks-hücumla işğal altında olan torpaqlarımızı qarış-qarış azad etdikcə, düşmən ordusuna sarsıdıcı zərbələr vurduqca Ermənistanın daxilində də vəziyyət getdikcə ağırlaşmağa başlayıb. Bu günə qədər təxminən 2 milyard dollar zərər görən Ermənistanın həm ordusunda, həm də cəmiyyətində demoralizasiya prosesi dərinləşməkdədir. Artıq düşmən ölkədə məğlubiyyət sindromu da formalaşıb". Bunu SİA-ya Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, hazırda Ermənistanda rəsmilərin bir çoxunun orduya maddi yardım etməməsi ilə bağlı narazılıqlar var, hətta müharibənin bütün ağırlığı orta və aşağı təbəqənin üzərinə qoyulub: "Azərbaycan Ordusunun istifadə etdiyi silahların müasir olması kontekstində düşmən ordusundakı silah-sursatın çatışmazlığı, adekvat cavab verə bilməməsi, ruh düşkünlüyü, fərarilik bütövlükdə erməni cəmiyyətində xeyli narazılıqlar yaradıb. Hətta, bu günə qədər Ermənistanın ordusu haqqında formalaşdırılmış mifin yeyinti və korrupsiya fonunda necə rəzil olduğunu da hər kəs görür. Təsəvvür edin ki, Paşinyan müharibəyə təlim və avtomat görməmiş 18 yaşlı "uşaqları" göndərir. Zirehli jilet, güllə yox, tank, zirehli texnika qalmayıb. Azərbaycan ordusunun 10 gün ərzində həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində düşmənin 250-dək tankı və digər zirehli texnikası, 270-dək artilleriyası, yaylım atəşli raket sistemləri, minaatanları, 60-dək hava hücumundan müdafiə vasitələri, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi, yüzlərlə canlı qüvvəsi məhv edilib, böyük sayda texnika qənimət olaraq ələ keçirilib. Eyni zamanda, erməni cəmiyyəti mətbuatdan və sosial şəbəkələrdən Azərbaycan xalqının Ordusunun yanında necə olduğunu, yardımlar etdiyini, könüllülərin döyüşmək üçün can atdığını, eləcə də Ordumuzun düşmənlərə vurduğu zərbələrin video görüntülərini, şəkillərini gördükcə daha çox psixoloji sarsıntı keçirir. Əlbəttə ki, bütün bunların səbəbkarı kimi isə yalnız Paşinyanı görürlər".

Sədaqət Vəliyeva əlavə edib ki, Paşinyanın yürütdüyü siyasət Ermənistanda böyük narazılıq yaradır, onun siyasi və hərbi sferadakı təcrübəsizliyinin, bacarıqsızlığının ölkəni uçuruma aparması hiddət formalaşdırır: "Hətta İrandan Ermənistana ciddi yardım göndərilməməsinin günahı da hökumətin yürütdüyü siyasətdəki səhvlərlə əlaqələndirilir. Eyni zamanda, Ermənistanın İsraildə səfirlik açmasının İranı qəzəbləndirdiyi də ehtimal olunur. Həmçinin, dünya ölkələrinin, beynəlxalq təşkilatların Ermənistana dəstək olmaması, Azərbaycanın haqq, ədalət işini dəstəkləməsi faktı da Paşinyanın uğursuz diplomatiyası kimi dəyərləndirilməkdədir".

Deputat diqqətə çatdırıb ki, son günlər ərzində Paşinyanın verdiyi müsahibələrində davranışları və özünü ifadə tərzinin qəribə olması faktı da onun psixi problemlərinin olduğuna işarə edir.

# Ermənistanın dinc sakinləri raket və artilleriya atəşinə tutması davam edir



Ermənistanın Azərbaycan şəhərlərini və dinc sakinləri raket və artilleriya atəşinə tutması davam edir. SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter"dəki hesabındakı paylaşımında deyib. O yazıb: "Ermənistanın "Smerç" raketlərindən və ağır artilleriyadan istifadə edərək Azərbaycan şəhərlərini və dinc sakinləri atəşə tutması davam edir. Gəncə, Bərdə, Tərtər və digər şəhərlər bu hücumların hədəfinə çevrilir. Ermənistanı dayandırmaq üçün sülhməramlı fəaliyyəti davam etdirmək lazımdır".

# Azərbaycanda 191 nəfər COVID-19-a yoluxdu, 154 nəfər sağaldı




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 191 yeni yoluxma faktı qeydə alınıb, 154 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 41 304 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 39 012 nəfər müalicə olunaraq sağalıb, 603 nəfər vəfat edib, aktiv xəstə sayı 1 689 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 280, ötən müddət ərzində isə ümumilikdə 1 156 938 test aparılıb.

# Təcavüzkar Ermənistanın iflası




***Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribata əl atması nəticəsində başlayan döyüşlər bütün cəbhəboyu davam edir. Şanlı Azərbaycan Ordusunun göstərdiyi şücaəti, əldə etdiyi qələbələri xalqımız böyük sevinc və qürur hissi ilə qarşılayır. Bir daha aydın olur ki, Ermənistan sosial-iqtisadi, siyasi, mədəni-humanitar sferalarda olduğu kimi, hərbi sahədə də Azərbaycanla rəqabət aparmaq qabiliyyətinə malik deyil və bunu hazırda cəbhədə gedən döyüşlər də sübut edir.***

Ermənistan rəhbərliyi hərbi toqquşmaların kəskinləşməsi fonunda xaricdən ona dəstək veriləcəyi xülyası ilə yaşayır. Bütün fəaliyyəti siyasi avantüradan ibarət olan N.Paşinyan hələ də anlamır ki, xarici ölkələrin hökumət və dövlət başçılarının ona münasibətləri ziddiyyətlidir və bu da müəyyən səbəblərdən irəli gəlir. Belə ki, N.Paşinyan hakimiyyəti ələ keçirdiyi gündən başlayaraq, özünün qeyri-ciddi mövqeyi və çıxışları ilə diqqəti cəlb edir. O, reallıq hissini itirərək hesab edir ki, bütün Qərb dövlətləri və Rusiya ölkəmizə təzyiq göstərməlidirlər ki, Azərbaycan ərazilərinin işğalı faktı ilə barışsın və ermənilərə Cənubi Qafqazda ikinci dövlət yaratmağa imkan versin.

N.Paşinyanın Ermənistanın hərbi gücə malik olduğunu bəyan etməsi onun növbəti pafoslu çıxışlarından biridir. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını alıb Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq hərbi təxribata əl atdı. Lakin Azərbaycan Ordusu düşmənin mənfur niyyətinin qarşısını qətiyyətlə alaraq, onu xeyli sayda canlı qüvvə və texnika itkisinə məruz qoydu. Ermənistanın növbəti hərbi təxribatı nəticəsində 2020-ci il sentyabrın 27-dən başlayaraq davam edən döyüşlərdə Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək, işğal edilmiş torpaqlarımızın azad olunması üçün uğurlu hərbi əməliyyatlar həyata keçirir. Bütün bunlar Azərbaycanın hərbi gücünü və qüdrətini nəinki Ermənistana, bütün dünyaya göstərir.

Ermənistan hakimiyyəti məqsədli şəkildə təxribatlara əl atmaqla dünya ictimaiyyətində belə bir fikir formalaşdırmağa çalışır ki, hərbi əməliyyatlar Dağlıq Qarabağdan Ermənistan-Azərbaycan sərhədinə transformasiya olmuşdur. N.Paşinyanın niyyəti Azərbaycanı, guya, Ermənistanın ərazi bütövlüyünü bilərəkdən pozmaqda və güc nümayiş etdirməklə Dağlıq Qarabağdakı separatçı rejimə, ümumiyyətlə, regional təhlükəsizliyə təhdid yaratmaqda günahlandırmaqdır.

Beynəlxalq aləmdə vassal dövlət kimi tanınan Ermənistan dərin sosial-iqtisadi böhranla və kəskin daxili siyasi qarşıdurmalarla üzləşmişdir. N.Paşinyan hakimiyyəti Ermənistanda əhalinin diqqətini ağır vəziyyətdən yayındırmağın çıxış yolunu Azərbaycana qarşı hərbi təxribatlar törətməkdə görür ki, onun bu niyyəti də uğursuzluğa məhkumdur. N.Paşinyanın siyasəti nəticəsində Ermənistan ağır böhran dövrünü yaşayır ki, ermənilərin özləri belə KİV-də və sosial şəbəkələrdəki çıxışlarında vəziyyətdən çıxış yolu tapılmasının çətin olduğunu bildirirlər. Ermənistanda ictimai-siyasi proseslər demək olar ki, nəzarətdən çıxmış, N.Paşinyanın "küçə demokratiyası" erməniləri aclıq və səfalətlə üz-üzə qoymuş, hakimiyyətdaxili qarşıdurmalar isə səngimir. Ermənistanda sosial-iqtisadi tənəzzülün daha da dərinləşməsi əhalinin iqtidara inamsızlığını artırır. Ermənistan KİV-i açıq şəkildə bildirir ki, ölkənin daxili siyasi həyatında heç bir ciddi irəliləyiş yoxdur, məyus olan vətəndaşların sayı getdikcə çoxalır. N.Paşinyan hakimiyyətə gəldiyi vaxtdan iki il keçməsinə baxmayaraq, ermənilərə verdiyi vədləri yerinə yetirməmişdir.

Ermənistanda sosial-iqtisadi tənəzzülün hökm sürdüyünü, yoxsulluq səviyyəsinin sürətlə artdığını nəinki beynəlxalq ekspertlər və mütəxəssislər, hətta ermənilərin özləri belə konkret faktlara və statistikaya əsaslanmaqla sübut edirlər. Kütləvi işsizlik və kasıbçılıq N.Paşinyan hakimiyyəti ilə əhali arasındakı uçurumu dərinləşdirir, Ermənistandan mühacirət edənlərin sayı ildən-ilə çoxalır, şəhər və kəndlərdə demoqrafik və sosial vəziyyət gündən-günə pisləşir. Gənclərin Ermənistandan xarici ölkələrə kütləvi şəkildə getməsinin əsas səbəblərdən biri onların Dağlıq Qarabağdakı işğalçı erməni ordusunda xidmət etmək istəməməsi ilə bağlıdır. N.Paşinyan hakimiyyətinin davam etməsi Ermənistanda sosial-iqtisadi böhranı, daxili siyasi ziddiyyətləri getdikcə kəskinləşdirəcək ki, bu da orada tezliklə sosial partlayış yaradacaqdır.

N.Paşinyan ona müxalif mövqedə dayanan şəxsləri davamlı şəkildə siyasi repressiyalara məruz qoyur. Dağlıq Qarabağda yaşayan ermənilərlə N.Paşinyan iqtidarı arasındakı ziddiyyətlər daha da mürəkkəbləşir. Bu bölgədəki ermənilər özlərini Ermənistanın həm keçmiş, həm də indiki hakimiyyətlərinin girovları hesab edirlər. Onların əksəriyyəti Ermənistan rəhbərliyinin "biz olmasaq, türklər sizi məhv edəcək" kimi iddialarının yalan və iftira olduğunu anlayır, əsl təhlükənin erməni millətçiliyindən irəli gəldiyini başa düşürlər. KİV-də və sosial şəbəkələrdəki çıxışlarında açıq şəkildə bildirirlər ki, əgər Ermənistan Azərbaycanın torpaqlarını işğal etməsəydi, Dağlıq Qarabağda yaşayan ermənilər rifah və sabitlik içində yaşayardılar. Buna görə də onların istəklərinə maneə olan ən böyük səbəb Ermənistanın işğalçılıq siyasətidir.

Dağlıq Qarabağda yaşayan sadə ermənilər Azərbaycan dövlətinin hərtərəfli inkişafına həsədlə yanaşırlar. Onların özləri də yaxşı bilir ki, N.Paşinyan hakimiyyətinin Azərbaycanla bağlı Ermənistan auditoriyası üçün yaydığı informasiyalar reallığı əks etdirmir və əsl həqiqətləri ermənilərdən gizlətmək məqsədi daşıyır. Prezident İlham Əliyevin sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramına verdiyi müsahibədə dediyi kimi, "Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir. Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yeni Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir".

Ermənistanın Azərbaycana qarşı apardığı informasiya müharibəsi də iflasa uğramışdır. Dünya ictimaiyyəti bilir ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquqa zidd mövqe tutur. Ermənistanın işğalçılıq siyasətinin mahiyyəti, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və nəticələri barədə beynəlxalq ictimai rəyin obyektiv şəkildə formalaşması istiqamətində Prezident İlham Əliyev məqsədyönlü siyasət aparır və bu sahədə mühüm uğurlar əldə edilir. Ermənistan rəhbərliyi cəbhə bölgəsində hərbi təxribatlar törədərkən çirkin niyyətini ört-basdır etmək üçün yaydığı dezinformasiyalarla və feyk xəbərlərlə ictimai rəyi çaşdırmağa çalışır ki, bu yaxınlarda onun bir daha şahidi olduq. Belə ki, bu il sentyabrın 27-də cəbhədə başlayan döyüşlər zamanı Ermənistanın qeyri-obyektiv və əsassız informasiyalar (guya, Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus F-16 təyyarələrinin, xarici ölkələrdəki muzdlu silahlı dəstələrin Azərbaycan tərəfindən döyüş əməliyyatlarında iştirak etməsi və s.) yaymaqda əsas məqsədi ictimai rəydə Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaqdan və münaqişəyə üçüncü ölkələrin qoşulmasına çalışmaqdan ibarətdir. Təbii ki, Ermənistanın bu cür əsassız iddialarla beynəlxalq ictimaiyyəti aldatmaq cəhdləri mənasızdır və artıq dünya ölkələri yaxşı bilirlər ki, Azərbaycan dövləti özünün ərazi bütövlüyündən heç vaxt imtina etməyəcək və nəyin bahasına olursa-olsun işğal edilmiş ərazilərini azad edəcəkdir. Buna görə də N.Paşinyanın Ermənistanda hökm sürən böhrandan və siyasi qarşıdurmalardan əhalinin diqqətini yayındırmaq üçün Azərbaycana qarşı informasiya təbliğatı aparmaqla nəyəsə nail olması qeyri-mümkündür.

Təəssüf ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə mühüm təsir göstərə biləcək beynəlxalq təşkilatlar və ölkələr hələ də "ikili standartlar" siyasəti aparmaqda davam edirlər. Onlar Azərbaycanın üzləşdiyi hərbi təcavüzün və etnik separatizmin qarşısının alınması üçün qətiyyətli mövqedən çıxış etmirlər. Münaqişə ilə bağlı BMT-nin qəbul etdiyi qətnamələr, ATƏT, Avropa Şurası, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların qərarları və bəyannamələri indiyə qədər heç bir nəticə verməmişdir. Onların təcavüzkar Ermənistanla ərazisi işğal olunmuş Azərbaycana eyni mövqedən yanaşmaları məntiqə sığmır. Prezident İlham Əliyev bununla bağlı olaraq 2020-ci il oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində bildirmişdir: "Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması beynəlxalq hüququn işləmədiyinin və ya selektiv üsulla işlədiyinin yaxşı göstəricisidir. Bildiyiniz kimi, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakin bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin nəyə görə bu qədər uzun çəkməsinin səbəblərindən biridir".

Hazırda Ermənistanda əhali ağır mənəvi-psixoloji gərginlik şəraitində yaşayır, oradakı ictimai mühit inamsızlıq və pessimizmlə xarakterizə olunur. Ermənilər indi olduğu kimi, gələcəkdə də onları yaxşı günlərin gözləmədiyini başa düşürlər. Ermənistanda vətənpərvərlik əhvali-ruhiyyəsi yox dərəcəsindədir, hazırda ermənilərin tez-tələsik xarici dövlətlərə qaçmağa cəhd göstərmələri və hərbi xidmətdən kütləvi şəkildə yayınmaları dediklərimizi bir daha sübut edir. Daxili siyasi qarşıdurmalar, ağır sosial-iqtisadi problemlər, ermənilərin hərbi cəbhədəki uğursuzluqları Ermənistandakı mənəvi-psixoloji böhranı daha da dərinləşdirir.

Milli Ordumuzun qarşısında Ermənistan çox gücsüzdür, buna görə də N.Paşinyan hakimiyyəti hərbi cəbhədəki məğlubiyyətini ört-basdır etmək məqsədilə beynəlxalq hüquq normalarını kobud şəkildə pozub, mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinə və sosial obyektlərə ağır artilleriya qurğuları, aviasiya və xüsusi raket sistemlərindən istifadə edilməklə atəş açmaq göstərişini verib özünə təsəlli tapmaq istəyir. Bu isə onu göstərir ki, Ermənistan mülki əhalinin müdafiəsi haqqında Konvensiya, Cenevrə konvensiyaları, BMT-nin Uşaq Hüquqları Konvensiyası və digər beynəlxalq sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edir. Azərbaycan Ordusu isə ermənilərdən fərqli olaraq döyüşləri mülki əhali arasında deyil, cəbhə xəttində aparır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun işğal edilmiş torpaqlarımızı bir-birinin ardınca azad etməsi nəticəsində tarixi ədalət bərpa olunur. Oktyabrın 4-də Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndinin işğaldan azad edilməsi xalqımızın həyatında böyük tarixi hadisə oldu.

Ermənistan hakimiyyəti nə qədər ki, gec deyil hərbi əməliyyatları dayandırmalı, Prezident İlham Əliyevin oktyabrın 4-də xalqa müraciəti zamanı irəli sürdüyü şərtləri yerinə yetirməlidir. Bu şərtlər Ermənistanın işğalçılıq siyasətinə son qoyaraq ölkəmizin ərazilərini tərk etməsi, Azərbaycanın ərazi bütövlüyünü tanıması, xalqımızdan üzr istəməsi, Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bildirməsi və işğal edilmiş ərazilərimizdən erməni silahlı qüvvələrinin çıxarılması qrafikini Azərbaycana verməsindən ibarətdir.

***Mübariz Qurbanlı,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyası İcra katibinin müavini***

# Məşhur Məmmədov: "Prezidentimizin qətiyyətlə söylədiyi fikirlər hər birimizi daxilən səfərbər edib"



***"Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Məhz bu gün dövlətimizin başçısının qətiyyətli addımları, xalqa müraciətləri cəmiyyətimizdə, dünyanın hansı nöqtəsində yaşamağından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən hər kəsdə ruh yüksəkliyi yaradıb. Və dövlət başçımızın dediyi "Düşmən tapdağında olan torpaqlarımızı azad edəcəyik" fikirləri, Prezidentimizin qətiyyətlə söylədiyi hər söz, hər kəlmə hər birimizi daxilən səfərbər edib". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov deyib.***

Deputat bildirib ki, sentyabrını 27-dən bu günə kimi işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda savaş gedir: "Artıq 12 gündür ki, Azərbaycan Prezidenti, Ali Baş Komandanın qətiyyəti, güclü Azərbaycan Ordusunun və rəşadətli əsgərlərimizin şücaəti nəticəsində gedən Vətən müharibəsi zamanı hər gün cəbhədən sevindirici xəbərlər alırıq. Dövlət başçımızın dediyi kimi, "Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu hazırda öz torpaqları uğrunda döyüşür". Tez bir zamanda Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının siyasi-diplomatik sahədə atdığı uğurlu addımı nəticəsində Ermənistan artıq hər tərəfli məğlubiyyətə uğramaqdadır. Hər ötən gün düşmənin istər canlı qüvvəsi, istərsə də hərbi texnika baxımından imkanları tükənməkdədir. Ermənistanın təbliğat maşını nə qədər yalan informasiyalar yaysa da, cəbhənin bütün istiqamətlərində Azərbaycan Ordusu düşməni darmadağın edərək irəliləyir".

"Bu gün dövlətimizin başçısının qətiyyətli addımları, xalqa müraciətləri cəmiyyətimizdə, dünyanın hansı nöqtəsində yaşamağından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən hər kəsdə ruh yüksəkliyi yaradıb",- deyən millət vəkili Prezidentimizin qətiyyətlə söylədiyi hər sözündən, hər kəlməsində hər birimiz qürur duyuruq: "Çünki dövlət başçımızın dndiyi kimi: "Biz bu gün xalqımızın və dövlətimizin yeni, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpaqlarımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar".

M.Məmmədov onu da vurğulayıb ki, oktyabrın 4-də Prezident İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi hər bir fikri hər zaman olduğu kimi, bu dəfə də dövlətimizin başçısının diplomatik bacarığının, qətiyyətli mövqeyinin, prinsipiallığının nümayişidir: "Azərbaycan özü bu məsələni həll edir və məni 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu". Göründüyü kimi, dövlətimizin hər bir sözü hər bir vətəndaşda ruh yüksəkliyi yaradır. Çünki dövlət başçımızın dediyi kimi, biz haqq yolundayıq və biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

Müraciətdə dövlət başçımızın Ermənistanın baş nazirinə diplomatik cavabı da xalqımızda, gənclərimizdə böyük ruh yüksəkliyi yaratdığını deyən millət vəkili M.Məmmədov bildirdi ki, bütün bunlar xalq-hakimiyyət birliyinin nəticəsidir: "İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam".

Millət vəkili onu da bildirdi ki, dövlət başçısı etdiyi müraciətlərində də dönə-dönə bildirir ki, ədaləti bərpa etməklə, ərazi bütövlüyümüzü bərpa edilir, Azərbaycan xalqının ümüdlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır", - deyən dövlət başçımız "Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümüdlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

**RƏFİQƏ HÜSEYNOVA**

# Zirvələri fəth edən xeyirxah insan - Mirkazım Kazımov 70

***Bəşəriyyətin ən ali varlığı olan insan üçün xeyir əməl sahibi olmaq ən böyük şərəfdir. Bu yüksək ada sahib olmaq, hər bəşər övladına nəsib olmur. Ancaq "Qasid" Mətbuat Yayımı Səhmdar Cəmiyyətinin sədri, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Mirkazım Kazımov o xoşbəxt insanlardandır ki, ölkəmizdə əməksevərlilik və insansevərlilik nümunəsi kimi tanınır. 70 illik yubileyini qeyd edən Mirkazım müəllimin xeyirxah və inamlı işləri onu daim ucaldıb, zirvələrə qaldırıb.***



Təbiətən sakit, mülayim, həddən artıq nəvazişli və qayğıkeş olması ilə seçilən Mirkazım müəllimin keçdiyi həyat yoluna nəzər yetirdikdə bu böyük ürəkli, xeyirxah və qayğıkeş insanın ziyalılığı, xalqımızın mədəni irsinin inkişafında, təbliğində, dispora quruculuğunda oynadığı rolu, fəaliyyəti bir daha ğöz önünə gəlir. Xatırladım ki, Mirkazım Kazımov 1950-ci il oktyabrın 10-da Azərbaycanın bərəkətli diyarlarından biri olan Cəlilabadın Hasıllı kəndində, ölkəmizin cənub regionunun nüfuzlu və xeyirxah nəsillərindən biri olan Mir Məhəmməd ağanın ailəsində dünyaya gəlmişdir. Balıqçılıq təsərrüfatı üzrə orta ixtisas təhsili alan gənc Mirkazım Kazımov keçmiş ittifaqın dəniz balıqçılıq donanmalarının gəmilərindən birində əmək fəaliyyətinə başlamış, öz ixtisası sahəsində kifayət qədər təcrübə toplamış, dünya sularının sərt imtahanlarından çıxmışdır.Sonrakı illərdə ilkin ixtisası üzrə təhsilini davam etdirmiş, Moskva Yeyinti Sənayesi İnstitutuna daxil olmuş və bu ali təhsil ocağını müvəffəqiyyətlə bitirmişdir.

Mirkazım Kazımov ötən əsrin 90-cı illərinin əvvəllərində siyasi fəaliyyətə qoşulmuş, Yeni Azərbaycan Partiyasının yaradılmasında fəal iştirak etmiş, partiyanın ilk üzvlərindən biri olmuşdur. 1993-cü ildən partiyanın Mərkəzi Aparatında çalışmış, sonrakı illərdə onun işlər müdiri olmuşdur. Mirkazım Kazımov 1999-cu ildən YAP-ın Siyasi Şurasının üzvüdür. O, 1996-cı ildən "Qasid" Mətbuat Yayımı Səhmdar Cəmiyyətinin sədri işləyərək bu böyük kollektivə uğurla rəhbərlik edir. Mirkazım müəllim bütün varlığı ilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, ölkənin və regionun nüfuzlu siyasi təşkilatına, müstəqil Azərbaycanın və xalqımızın həyatında müstəsna rolu olan Yeni Azərbaycan Partiyasına bağlıdır.

Ölkənin cənub regionunda layiq görüldüyü diqqət və ehtiram Mirkazım Kazımova II və III çağırış Milli Məclisə seçkilərdə deputat mandatı qazandırmışdır. Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü olaraq qanun yaradıcılığında, Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, Azərbaycan-Argentina, Azərbaycan-Malayziya və Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupların üzvü kimi parlamentin beynəlxalq əlaqələrinin genişlənməsində fəal iştirak edib.

Birmənalı şəkildə demək olar ki, Mirkazım müəllim əməldə xeyirxahlığı, fəaliyyətdə mübarizliyi və tükənməz səbri sayəsində insanlıq zirvəsini fəth edib. Bu baxımdan Azərbaycanda hər kəs ona hörmət bəsləyir, rəğbət göstərir. Xalqımızın ən gözəl xüsusiyyətləri olan insana yaxşılıq etmək, qayğı göstərmək Mirkazım müəllimin həyat amalıdır. Hazırda 70 yaşını qeyd etməklə kamillik zirvəsinə yüksələn Mirkazım müəllim sözün əsl mənasında bir çox insanlar üçün ümid və inam yeridir. Söhbətimiz zamanı Mirkazım müəllim 70 illik həyat və fəaliyyətindən deyil, xalqımızın qaysaq bağlamayan yarası olan Dağlıq Qarabağdan danışır. Dağlıq Qarabağda Azərbaycan ordusunun uğurlu hərbi qələbələr qazanmasından xoş anlar yaşadığını deyən Mirkazım müəllim əminliklə qeyd edir ki, Azərbaycanın güclü və qüdrətli ordusu ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımızın Şuşada, Ağdamda, Zəngilanda, Xankəndində və digər erməni işğal altında olan ərazilərimizdə sancılması təmin ediləcək. Deyir ki, uzun illər işğal altında olan ərazilərimize getmək, o gözəl, füsunkar əraziləri seyr etməyi arzulayıb: "Nəhayət o tarixi gün yetişib. Azərbaycanmızın müzəffər ordusu düşməni məhv edərək, ərazilərimizi işğaldan azad etməkdədir. Yaxın vaxtlarda qaçqın və məcburi köçkünlərimiz öz yurdlarına qayıdacaqlar. O yerlərdə sakit və təhlükəsiz həyat qurulacaq. Buna görə, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə təşəkkür edirik".

"Qasid" Mətbuat Yayımı Səhmdar Cəmiyyətinin sədri, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Mikazım müəllimi 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayır, ictimai-siyasi fəaliyyətində və şəxsi həyatında uğurlar arzulayırıq.

**İ.ƏLİYEV**

# Növbəti düşmən təxribatı: "Messenger"lə səs yazıları göndərilir

***Ermənistan bu dəfə "Facebook Messenger" üzərindən təxribatlarını davam etdirir. Belə ki, guya türkiyəli əsgərlərin Qarabağ müharibəsində Azərbaycan tərəfində vuruşduğunu təsdiqləmək məqsədilə Azərbaycandan olan istifadəçilərə "Messenger" vasitəsilə türk dilində səs yazıları göndərilir, eləcə də videozənglər edilir. Bu zəngləri edən şəxslər özlərini Türkiyə vətəndaşı kimi qələmə verir və qarşı tərəfdən informasiya əldə etməyə çalışırlar.***




Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən SİA-ya verilən məlumata görə, nazirlik yanında Elektron Təhlükəsizlik Xidməti vətəndaşlardan xahiş edir ki, hazırkı dövrdə tanımadıqları şəxslərdən gələn mesaj və zənglərə cavab verməsinlər. Məlumatların düzgünlüyünü rəsmi mənbələrdən yoxlasınlar.

Həmçinin hər hansı kiberinsidentlə üzləşdiyinizdə və ya metodiki dəstəyə ehtiyacınız olduqda, www.cert.az saytı və ya reports@cert.az e-poçtu vasitəsilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinə müraciət edin. Xahiş edirik ki, baş verən kiberinsidentlərlə bağlı ekran görüntülərini (screenshot) və digər elektron sübutları saxlayın və bizə göndərin.

# Erməni hərbi əsir Paşinyanı söydü: "Hamısını Nikol etdi"



Azərbaycan Ordusunun bölmələri tərəfindən Qarabağda əsir götürülən erməni hərbçilərin fotolarını paylaşılıb. Həmin əsirlərdən birinin isə videosu da yayılıb. Erməni əsir videoda Ermənistanın baş naziri Nikol Paşinyanı ifşa edən sözlər deyib. Həmin videonu və videoda erməninin söylədiklərinin qısa tərcüməsini təqdim edirik:

- (söyüş) Nə edib Nikol edib! Mən günahkaram, gəlmişdim 2 il xidmət edib ailəmə qayıdım. Nikol bu vəziyyətə gətirib çıxardıb. Deyirdi ki, döyüşəcəksiniz, yaxşı olacaq, ancaq özü qoydu qaçdı. Mən 18 yaşındayam. Cəbrayıl alayına gəlmişdim. Artilleriyaçıyam. Gəlmişdim ki, sizin kimi xidmət edəm. Gedib Ermənistan Martunisinə çatım. Atam, anam məni gözləyir.

- "Yerkrabah"san?

- Yox.

# Düşmənlə savaşarkən digərini də yaddan çıxarmayaq!

## Karantin rejiminin tələblərinə ciddi əməl etmək işğalçı düşmənə növbəti qələbə çalmaqdır

***İşğalçı Ermənistan sentyabrın 27-dən Azərbaycana qarşı növbəti hərbi təxribata əl ataraq yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutdu. Bu təcavüzə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Sentyabrın 28-dən başlayaraq ölkənin bir neçə regionunda hərbi vəziyyət və komendant saatı elan edildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusu və rəşadətli əsgərlərimizin şücaəti ilə uğurla irəliləyərək işğal altında olan torpaqlarımızın azad olunması davam etməkdədir.***

Xalqımız hər gün əldə olunan qələbələrə birlikdə sevinir və torpaqlarımızın tez bir zamanda bütünlüklə azad ediləcəyinə əminliklərini bildirirlər. Bu başadüşüləndir. Ancaq bu gün həm də bir məqamı unutmaq olmaz ki, bütün dünyanı bürüyən koronavirusla da mübarizəmizi davam etdirirk. 7-8 ay öncə Azərbaycan xalqı ilə dövlət koronavirusa qarşı mübarizədə həmrəylik göstərirdisə bu gün xalqımız, ordumuz, dövlətimiz bu həmrəyliyi savaş bölgələrində nümayiş etdirirlər. Şanlı ordumuzun əldə etdiyi qələbələr hər birimizi qürurlandırır. Lakin bu sevincli günlər bizə "gözəgörünməz" düşməni - koronavirus infeksiyasını unutdurmamalıdır.

### Əli Əsədov: "Karantin rejiminin tələblərinə daha ciddi əməl etməyə, bununla da bütün gücümüzü işğalçı düşmənlə mübarizə üçün səfərbər etməyə çağırırıq"

"Koronavirusla mübarizədə qazanılmış nailiyyətləri qoruyub saxlamaq və bütün resursları cəbhəyə yönəltmək üçün karantin rejiminin qaydalarına nəzarəti gücləndirmək lazımdır". Bunu Baş Nazir Əli Əsədov Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla mübarizə tədbirlərini müzakirəsi zamanı deyib.

Baş Nazir bildirib ki, xüsusilə iş yerlərində, ictimai nəqliyyatda, ticarət mərkəzlərində və təhsil müəssisələrində qaydalara əməl edilməsinə daha ciddi nəzarət edilməlidir: "Operativ Qərargah adından vətəndaşlarımıza müraciət edərək bildirirəm ki, koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə tətbiq edilən xüsusi karantin rejimi davam edir. Vətəndaşlarımız arasındakı emosional ruh yüksəkliyi təmasların artması isə müşahidə olunur ki, bu da davam edən koronavirus xəstəliyi fonunda insanların sağlamlığına böyük təhlükələr yarada bilər. Məlum olduğu kimi, Azərbaycanla qonşu olan, həmçinin dünyanın digər ölkələrində xəstəlik sürətlə yayılmaqdadır və ekspertlər bunu hətta ikinci dalğanın başlaması kimi qiymətləndirirlər. Bu, bizi daha ehtiyatlı olmağa sövq edir".

Əli Əsədov onu da bildirib ki, indiyədək vətəndaşlarımız xüsusi karantin qaydalarına ciddi şəkildə riayət ediblər və bunun nəticəsində xəstəlik hal-hazırda nəzarət altındadır: "İndiyə qədər pandemiya ilə mübarizədə qazandığımız nailiyyətləri itirməmək üçün karantin rejiminin qaydalarına əməl olunması zəruridir. Eyni zamanda, dövlətimiz, xalqımız və milli təhlükəsizliyimiz üçün belə bir mürəkkəb dövrdə karantin qaydalarına əməl olunması virusla mübarizədən daha böyük əhəmiyyətə malikdir. Bu işdə hər bir vətəndaşımızın töhfəsi təqdirəlayiqdir".

Baş Nazir Əli Əsədov belə bir mürəkkəb dövrdə torpaqlarımızın azad olunması



uğrunda göstərdiyimiz birlik, vətəndaş həmrəyliyi və intizamın görünməz düşmən olan koronavirus xəstəliyi ilə mübarizədə də göstərilməsinin vacib olduğunu bildirib: "Bununla belə xəstəliyin yayılmasına, karantin rejiminin qaydalarının pozulmasına məsul olan şəxslər və mülkiyyət formasından asılı olmayaraq müəssisə sahiblərinin nəzərinə çatdırırıq ki, karantin rejiminin tələblərinə riayət edilmədiyi hallarda aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər görüləcəkdir. Bununla əlaqədar aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib və onlar nəzarət tədbirlərini daha sərt və ciddi şəkildə davam etdirməlidirlər. Odur ki, hər bir vətəndaşa müraciət edərək karantin rejiminin tələblərinə daha ciddi əməl etməyə, bununla da bütün gücümüzü işğalçı düşmənlə mübarizə üçün səfərbər etməyə çağırırıq".

### Vasif Əliyev: "Həm ön cəbhəyə, həm də həkimlərə kömək etmək, özümüzün və əsgərlərimizin sağlamlığını qorumaq üçün karantin rejiminə əməl etməliyik"

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) yoluxucu xəstəliklər üzrə işçi qrupun rəhbəri Vasif Əliyev bildirib ki, bu gün yumşaldılmalara gedildikdən sonra yoluxma hallarında stabilliyin müşahidə olunması dövlətin atdığı addımlar və vətəndaş məsuliyyətinin nəticəsidir: "Artıq 12 gündür ki, Azərbaycan Prezidenti, Ali Baş Komandanın qətiyyəti, Güclü Azərbaycan Ordusunun və rəşadətli əsgərlərimizin şücaəti nəticəsində gedən Vətən müharibəsi zamanı hər gün cəbhədən sevindirici xəbərlər alırıq. Ancaq işğalçı Ermənistan isə hər ötən gün istər canlı qüvvəsi, istərsə də hərbi texnika baxımından imkanları tükənməkdədir. Ancaq biz ikinci düşməni -koronavirusa qarşı mübarizəni də unutmamalıyıq. Bunun fəsadını sonradan görə bilərik. Hər zaman vurğulayırıq ki, yoluxma saylarındakı stabillik bizi arxayınlaşdırmamalıdır. Hazırkı dövr çox həssas bir dönəmdir, hər zaman ehtiyatlı olmalıyıq. Əgər ön cəbhədəki əsgərlərə kömək etmək, arxa cəbhədə dayaq olmağa çalışırıqsa, öz sağlamlığımızı da düşünməliyik. Çünki koronavirus pandemiyası yaydakı kimi geniş vüsət almağa doğru gedərsə, xəstəxanalar təkrarən koronaviruslu xəstələrlə dolmağa başlayarsa, bir yandan müharibə zamanı əsgərlərin yaralanması, digər yandan da pandemiya vəziyyəti çətinləşdirə bilər. Unutmayaq ki, koronavirus da bir düşməndir, hətta gözə görünməyən bir düşmən. Biz bir düşmənə qarşı savaşarkən digərini yaddan çıxarmamalıyıq. Biz xalqımızın sağlamlığını qorumaq və ordumuza dəstək olmaq, yeni-yeni qələbələrə şahid olmaq istəyiriksə, qaydalara ciddi əməl etməliyik. Əgər biz sağlam olarsaq, onlar sağlam düşüncə və iradə ilə irəli atılacaqlar".

### Rəşad Mahmudov: "Azərbaycan haqq yolunda apardığı mübarizədə qalib gələcək və tarixi ədaləti bərpa edəcək"

Milli Məclisin deputatı Rəşad Mahmudov bildirib ki, müharibə rahat deyil, bunun ön və arxa tərəfi var: "Müharibə uzandıqca, ordunun təhlükəsizliyini təmin etmək çox önəmlidir. Diqqəti çəkmək istədiyim məqam fərqlidir. Arxa cəbhədə Azərbaycan əsgərinin yanındayıq. Azərbycan səhiyyə sistemi COVID-19-la mübarizədə bütün gücünü ortaya qoydu. Bu gün də hərbçilərimizlə birgə ön cəbhədə səhiyyə sistemimiz üzərlərinə düşən işin öhdəsindən gəlirlər. Tibb işçilərimiz heç bir şey demədən ön cəbhədə əsgərlərin arxasında öz işlərini davam etdirirlər. Azərbaycan əsgəri əmin əllərdədir".

Deputat COVID-19-un dünya bəlası olaraq hələ də qaldığını da xüsusi vurğulayıb: "COVID-19-la mübarizədə COVID-19-la mübarizədə acizik. Bu gün həyəcan içərisində Ali Baş Komandanın, ordumuzun apardığı uğurlu işin nəticəsində daha çox bir-birimizlə təmasa giririk. Bu gün Azərbaycan övladları şəhid olmaqdan qorxmayaraq həyata dik baxırlar. Bu gücü qazandıqca, məsuliyyətimiz də artır. İnsanların yemək, paltar aparmaq istəyini hamımız görürük. Unutmayaq. Hər birimiz əsgərimizi COVID-19-dan qorumalıyıq. Əgər bu pandemiya alovlanarsa, bu gün Azərbaycan əsgəri üçün mübarizə aparan həkimlərimizi geri qaytarmalı olacağıq. Bu çağırışı hər birimiz anlayışla qəbul etməliyik. Azərbaycan əsgərini, Azərbaycan ordusunu COVID-19-dan qorumaqla onlara ən böyük töhfə verə bilərik. Bütün Azərbaycan əhalisindən xahiş edirəm. COVID-19-la mübarizədə Azərbaycan əsgəri, Azərbaycan ordusu üçün diqqətli olmalıyıq".

Bəli, dövlət Qarabağ müharibəsi ilə yanaşı koronavirus müharibəsi şəraitində yaşayır. Ona görə də hər bir şəxs mövcud reallığı, qanunun aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli və başa düşməlidir və inşallah hər iki mübarizədə az itkilərlə bu mübarizələrdən də şərəflə çıxacağıq. Buna isə hər iki mübarizədə "Biz birlikdə güclüyük!" devizi ilə nail ola bilirik və bu gün buna nail olmaqdayıq! Ulu Tanrı Prezidentimizə, Güclü Ordumuza, rəşadətli, igid əsgərlərimizə dayaq olsun!

**RƏFİQƏ HÜSEYNOVA**

## "Ermənistan həm cəbhədə, həm də beynəlxalq siyasətdə Azərbaycana uduzub"

*Millət vəkili Azər Badamovun "Səs" qəzetinə müsahibəsi*

***- Azər müəllim, Dağlıq Qarabağ müharibəsində Ermənistan Azərbaycan qarşısında tamamilə məğlub olub. Amma hələdə müqavimət göstərməkdədir. Bu bir növ Ermənistan rəhbərliyinin xüsusilə də, Paşinyanın insanların kütləvi itkisinə belə seyirci qalmasının bariz nümunəsi adlandırıla bilər?***



- Ermənistan həm cəbhədə, həm də beynəlxalq siyasətdə Azərbaycana uduzmuşdur. Beynəlxalq siyasətdə Azərbaycanın haqq işini dəstəkləyənlər günü-gündən artmaqdadır. Bəzi ölkələr isə müəyyən məsələləri nəzərə alaraq neytral mövqe nümayiş etdirirlər və bu da ölkəmizin dəstəklənməsi kimi qəbul etmək olar. Bu gün Azərbaycanın rəşadətli ordusunun cəbhədəki uğurları günü-gündən artmaqdadır. Bu, həm də küllü sayda düşmənin canlı qüvvəsinin və legitim hədəflərinin məhv edilməsi deməkdir. Ermənistanın Baş naziri cəbhədəki uğursuzluqlarını görür və gənc nəslinin qırdırılması ilə kifayətlənməyib qadınları və qocaları da ordumuzun qabağına göndərir. Paşinyan təbii bilir ki, Azərbaycan ordusu ilə döyüşü göndərilən bütün canlı qüvvəsi məhv olunacaqdır. Amma bunu bilə-bilə yenə də öz sərsəm niyyətindən çəkinmək istəmir. Paşinyan bilir ki, torpaqların işğaldan azad olunması onun hakimiyyətin sonu deməkdir. Ona görə də hakimiyyətdə qaldığı hər günü qənimət hesab edərək müharibəni uzatmaq istəyir, bilə-bilə insanları qırdırır. Qələbəmizə çox az müddət qalmışdır. Müzəffər ordumuz düşməni səngərdən başını qaldırmağa qoymur. çoxusu da mövqelərini qoyub qaçır. Bu gün Ermənistanın bütün itkilərin səbəbkarı Paşinyandır. Ona görə də ermənilərin özləri Paşinyanı tezliklə devirəcək və ittiham kürsüsünə çıxardacaqlar.

***- Paşiniyan hər vəchlə atəşkəsə nail olunması üçün xarici ölkə rəhbərlərinə yalvarır, xaişlər edir. Bunu onun düşdüyü son dərəcə ağır durumun məntiqi nəticəsi hesab etmək olar?***

- Ermənistan Azərbaycan ordusunun gücünü döyüş meydanında gördü. Ordumuz əks hücuma keçənə qədər Paşinyan və onun hərbi rəhbərliyi Azərbaycan ordusunu dəyərləndirmirdi. Ona görə də yeni torpaqlar uğrunda müharibə bəyanatı ilə çıxış etmişdi. Bu gün isə real döyüş meydanında ordumuzun qabağında nəfəs ala bilmir. Hər gün mövqelərini itirir və geri çəkilir. Çarəsiz duruma düşmüş Paşinyan hər gün dünya liderlərinə zənglər edir , yalvarır və Azərbaycanı dayandırmaqlarını xahiş edir. Görünən odur ki, dünya liderlərinin də Paşinyandan zəhləsi gedir və hətta telefon zənglərinə cavab vermir. Dünya liderləri Paşinyana başa salmağa çalışırlar ki, Azərbaycan torpaqlarını azad etsin. Azərbaycan beynəlxalq hüquq normaları çərçivəsində öz hərb gücü ilə öz torpaqlarını işğaldan azad edir. Paşinyan isə dinc əhaliyə və mülkü obyektlərimizə mərmilər endirməklə beynəlxalq konvensiyaları pozur. Yeni Paşinyanın hər bir hərəkəti dünyada, o cümlədən öz ölkəsində ikrah doğurur və böyük narazılıqla qarşılanır.

***Gülyana***

# Artıq Paşinyanın erməni xalqına vəd yox, hesabat verməyinin vaxtıdır!

## Ekspertlər Nikolun Qərblə Kreml arasında qaldığını deyib

***Bu gün Ermənistan baş naziri Nikol Paşinyanın vədləri, çıxışındakı işğalçı fikirlər bir daha küçə "demokratı"nın hələ də eyforik küçə yürüşçüsü emosiyasından ayıla bilmədiyini təsdiqləyir. Nəticə nə oldu... Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribatlar barədə danışarkən bildirib: "Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın acı məğlubiyyəti onlar üçün dərs olmalıdır. Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Bu gün Ermənistan tərəfindən mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat törədildi. Qeyd etdiyim kimi, onlar öz cəzalarını alıblar və alacaqlar".***





### "Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu"

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində də bir daha Nikol Paşinyan kimi işğalçı, terrorçunun əməllərinin nəticəsi belə olmalıdır deyir: "Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq: "Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!" Ermənistan KİV-i yazır ki, Koçaryan və Sarkisyanın prezidentlikləri dövründə korrupsiya dövlət ideologiyası idi. Ölkənin informasiya vasitələri əvvəlki rejimlərin oliqarxlarının Paşinyan hökuməti ilə əməkdaşlıq etdiklərini yazır. Onların qənaətincə, hökumət başçısı neqativ halları aradan qaldırmağa çalışsa da, yenə köhnə rejimin qalıqları ilə işləməsinin nəticəsi də belə olmalıdır: "Çünki Nikol Paşinyan "super baş nazirlik" arzusunda idi. Yeni konstitusiyanın hazırlanması ilə bağlı yaradılan komissiyanın da buna xidmət edəcəyi istisna edilmir.

### <u>Ekspertlər:</u> "Paşinyan hökumətinin xarici siyasət kursunda da səbatlılıq yox dərəcəsindədir"

Siyasi ekspertlərin sözlərinə görə, Paşinyan hökumətinin xarici siyasət kursunda da müəyyənlik, səbatlılıq yox dərəcəsindədir: "Paşinyan həm Qərbə, həm də Rusiyaya yarınmağa, nəticədə hər iki tərəfdən başının sığallamasına nail olmağa çalışır. Bu davranışın əziyyətini isə Ermənistan əhalisi çəkir. Nəticəsi də...

Düşmənin üç gün ərzində 2300 nəfərədək canlı qüvvəsi məhv edilib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinnin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı qeyd edib ki, işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir: "Təkcə üç gün ərzində düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tankəleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Dünən gedən döyüşlər ərzində Xocavənd rayonunun Şuşakənd ərazisində düşmənin 1 S-300 zenit-raket qurğusu sıradan çıxarılıb. İtirilmiş mövqeləri geri qaytarmaq üçün Madagiz istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən sentyabrın 30-u səhər saatlarından başlayaraq hücuma cəhd göstərib. Düşmənin bu fəaliyyətinin qarşısı alınır və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilir. Hazırda bütün cəbhə boyu hərbi əməliyyatlar davam edir".

### <u>Vitali Arkov:</u> "Nikol Paşinyanın erməni xalqına vəd yox, hesabat verməyinin vaxtıdır"

Rusiyalı ekspert Vitali Arkov Paşinyannı belə sənədlərlə bağlı açıqlamasını verdiyi vədlərin nəticəsi olduğunun ört-basdır etmək məqsədi güddüyünü bildirir: "Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağda verdiyi bəyanatlarla qəsdən Azərbaycanı müharibəyə təhrik edərək işğalçıdan dönüb məzluma çevrilmək istəyirdi. N.Paşinyan ölkədə iqtisadiyyatın çökdüyü bir vaxtda öz reytinqini bərpa etmək təlaşında və iqtisadi sahədə möcüzə yaratmaqda istəyində idi, amma artıq nağıl danışmağın vaxtı çoxdan itib. Və bu gün erməni xalqının qazancı boş sözlər, ən dəhşətlisi də Dağlıq Qarabağdan gələcək minlərlə tabut, minlərlə də şikəst olacağı idi. Artıq Nikol Paşinyanın erməni xalqına vəd yox, hesabat verməyinin vaxtıdır. "Qarabağ Azərbaycandır! Nöqtə"-nin erməni xalqına vurduğu ziyanın hesabatının verməyinin vaxtıdır".

### "Qarabağ Ermənistandır"nöqtə"-nin...

Cavabını Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 4-də xalqa müraciətəində bir daha dedi: "Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam!". Göründüyü kimi, dahilərin dediyi kimi, ermənilər həmişə gölə olub, qorxaq olub. Rus şair Puşkin yazırdı: "Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən...".

Bəli, Azərbacan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: "Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!". Odur ki, artıq Nikol Paşinyanın erməni xalqına vəd yox, hesabat verməyinin vaxtıdır.

***A.SƏMƏDOVA***



## Paşinyan və onun komandası: "Təcrübəsizlər və yaramazlar"

Ermənistan cəmiyyəti ictimai müzakirələr zamanı Paşinyanla yanaşı, onun müavinlərinə qarşı da təhqir məzmunlu ifadələr işlədir və Qarabağ cəbhəsindəki məğlubiyyətlərin əsas səbəbkarı kimi Nikol Paşinyan və onun kabinet üzvlərini görürlər. SİA Ermənistanın mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, Nikolun ən yaxın adamı, "sağ əli" hesab edilən müavini Tiqran Avinyanın müharibə getdiyi bir vaxtda məzuniyyətə çıxıb, oteldə dincəlməsi haqda ictimai müzakirələr gedir.

İctimai müzakirələrdə, Paşinyanın xalqın təzyiqləri səbəbi ilə Avinyanın qaldığı "Armenia" otelinə getdiyi, müəyyən danışıqlardan sonra öz müavinini Qarabağa göndərdiyi öz əksini tapır. Hətta işğalçı ölkənin mediası vurğulayır ki, Paşinyanın öz müavininin ayağına getməsi baş naziri öz kabinet üzvlərinin belə saymadığını təsdiqləyir. Ermənistana məxsus "Joxovurd" qəzeti yazır ki, cəbhədən qayıdan Tiqran Avinyan Paşinyana məruzə etmək istəyərkən, baş nazirin qəbul qrafikinin sıx olduğunu görüb səs-küy salaraq saymazlıq nümayiş etdirib.

Müharibə dövründə məmur intizamı göstərməyən Paşinyanın komandasını erməni jurnalist Ani Saakyan "təcrübəsizlər və yaramazlar" adlandırıb. "Müharibə gedir, amma Avinyanı isə hələ də eyş-işrət maraqlandırır. Paşinyan isə, ümumiyyətlə ayılmayıb", deyə jurnalist bildirib.

***İnam Hacıyev***

## Ermənilərin daha bir ağ yalanı: Əsir götürülən "azərbaycanlı" erməni çıxdı




Erməni sosial şəbəkələrində əsir götürülmüş azərbaycanlı kimi təqdim olunan şəxs, əslində, erməni imiş. SİA xəbər verir ki, erməni yalanını "Fact Check Karabakh" səhifəsi üzə çıxarıb. Həmin şəxsin çəkilişdən əvvəl hazırlandığına dair fotolar üzə çıxıb. Aşağıda qeyd olunan şəkildə siz həmin şəxsin qrim otağında videodan öncə hazırlaşdığını görə bilərsiniz.

# AXIRINCI YOL...




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***"İşğal etdiyimiz torpaqlar var. Bunda utanılacaq heç nə yoxdur. Təhlükəsizliyimiz üçün bu torpaqları işğal etdik. Biz bunu 1992-ci ildə də deyirdik, indi də deyirik. Bəlkə üslubum diplomatik deyil, amma həqiqət budur"- Serj Sarkisyan***

**II HİSSƏ**

**əvvəli ötən nömrədə**

Bu gün Azərbaycan ordusu öz tarixi, mənəvi torpağı olan Qarabağın azad edilməsi əməliyyatlarını sürətlə davam etdirir. İşğal edilmiş Qarabağda Ermənistanın işğalçı qüvvələrinə sarsıdıcı zərbələr vuran Azərbaycan əsgəri hər gün neçə neçə kəndimizi, şəhərimizi qanı və canı bahasına azad edir. Bəs buna gətirib çıxaran faktorlar hansılardır? Hərbi həll yoluna nə üçün ehtiyac duyuldu. Bu yazımızda bu suallara konkret və aydın cavab verməyə çalışacağıq.

## Azərbaycanın beynəlxalq nüfuzu öz sözünü dedi

Azərbaycan haqlı mübarizə apardığı üçün həm siyasi-diplomatik, həm hərbi-döyüş, həm informasiya-təbliğat müharibəsində üstünlüyü ələ alıb. Xarici siyasətində iki və çoxtərəfli səviyyələrdə münasibətlərin qurulmasına xüsusi önəm verən dövlətimizin düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın digər ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaradıb.

Azərbaycan sülhpərvər siyasəti nəticəsində dünya dövlətlərinin əməkdaşlıq etdiyi məkana çevrilib. Bu gün xalqımızın mənafeləri beynəlxalq aləmdə yüksək səviyyədə qorunur, ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur. Azərbaycanın artan imkanları, nüfuzu, dünya üçün vacib ölkəyə çevrilməsi mövqeyimizi daha da möhkəmləndirib.

Bu gün Azərbaycanın iştirakı olmadan regionda hansısa bir iqtisadi və siyasi layihənin həyata keçirilməsinin mümkünsüzlüyü müstəqil dövlətimizin əsl söz sahibi olduğunu təsdiqləyir.

Azərbaycan həm sülhpərvər siyasəti, həm də iqtisadi, sosial, elmi, texniki, mədəni əməkdaşlıq platformasında beynəlxalq məkanda sədaqətlli, etibarlı bir tərəfdaş olduğunu bütün dövrlərdə sübut edib.

Regional və beynəlxalq əməkdaşlığın təmin edilməsi üçün ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması rəsmi Bakı tərəfindən ən vacib şərt kimi önə çəkilirdi. Bu şərti isə hazırda Azərbaycan Ordusu təmin edir.

## Sülh yolu baş tutmayanda yalnız güc yolu qalırdı

Ərazisi işğal olunmuş, vətəndaşları soyqırıma və deportasiyaya məruz qalmış hər hansı bir ölkənin problemi sülh yolu ilə həlli mümkün olmayanda, əl atdığı başqa tədbirlər də var. Bu antiterror əməliyyatı, başqa sözlə, hərbi yoldur. Azərbaycan bu imkandan istifadə etmək üçün yetərli iqtisadi, hərbi və texniki imkanlara malikdir.

Keçirilən hər bir görüşdə cənab İlham Əliyev Azərbaycanın dəyişməz mövqeyini diqqətə çatdıraraq, danışıqlar xatirinə danışıq aparmağın gərəksiz olmadığını bildirir, qarşı tərəfdən qeyri-konstruktiv mövqeyindən əl çəkməyi, düzgün mövqe nümayiş etdirməyi tələb edirdi.

"Vaxt keçdikcə bizim bölgədə olan mövqeyimiz, təsir imkanlarımız, iqtisadi, siyasi, diplomatik, hərbi gücümüz daha da gücləncəkdir və hamı bununla hesablaşmalıdır"- Azərbaycan Prezidentinin bu mesajını lazımınca qiymətləndirmədilər. Lakin çox keçmədi ki, bu sözlərin niyə deyildiyi nə necə həyata keçirildiyini anladılar.

Prezident İlham Əliyev anti-terror əməliyyatlarının başladığı gün etdiyi çıxışında xüsusi vurğuladı: "mən dəfələrlə demişdim, xəbərdarlıq etmişdim" deyə. Lakiin bundan həm ermənilər, həm də onların dünyadakı havadarları dərs almadılar- deyən dövlət başçısı indi artıq danışıqlar üçün gec olduğunu, bütün işğal olunmuş torpaqlar azad edilənədək əməliyyatların dayanmayacağını qətiyyətlə bəyan etdi.

Bir sözlə, həm Ermənistan, həm də beynəlxaql təşkilatlar Azərbaycanı öz torpaqlarını güc yolu ilə azad etməyə məcbutr etdilər. Ona görə də, bu müharibənin məsuliyyəti də onların üzərinə düşür.

## Siyasi cəbhədə mövqelərin nəzərdən keçirilməsi

Lakin burada siyasi amilin də mühüm rolu var. Bu da fövqəldövlətlərin mövqeyidir. Rusiya, Britaniya və ABŞ məsələyə qarışmadıqlarını və dolayı yolla Azərbaycanın haqlı olaraq ərazilərini güc yolu ilə azad etdiyini bildirsələr də, Fransa özünün qeyri-obyektiv və beynəlxalq hüquqa tüpürən siyasətini ortaya qoydu. Lakin Azərbaycan prezidenti həyasız bəyanatla çıxış edən Fransa prezidenti Makronun layiqli cavabını verdi. Hazırda Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsini daha çox dövlət dəstəkləyir.

Obyektiv xarici ekspertlər deyirdilər ki, Azərbaycan sülh prosesinin artıq tükəndiyini görsə, müharibə yoluna üstünlük versə, yenə də beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini dəstəkləmiş olacaq. Çünki BMT-nin Nizamnaməsinin 51-ci maddəsində açıq-aydın göstərilir ki, hər bir ölkə özünü müdafiə etmək üçün bütün hüquqlara malikdir.

Bunun üçün ölkəmizin qüdrətli ordusu, anti-terror əməliyyatını aparmaq üçün maddi-texniki, iqtisadi-maliyyə imkanları, güclü potensialı var. Lakin bu sözləri bütün sahələrdə böhranlı və zəif vəziyyətə düşmüş işğalçı dövlət haqda demək mümkün deyil. Əməliyyatların ilk günlərindəcə bu aydın göründü. 10 gün qabaq Azərbaycan Ordusu işğal edilmiş ərazilərimizin azad edilməsi əməliyyatına başladı və artıq xeyli yaşayış məntəqəsi azad edilib.

## Döyüş meydanında mövqelərin nəzərdən keçirilməsi

İqtisadi qüdrətini artıran Azərbaycanın maliyyə imkanlarının genişlənməsi digər sahələrin inkişafına da öz müsbət təsirini göstərdi. Hərbi büdcəmizin ildən-ilə artması dövlətimizin iqtisadi imkanlarının artmasından irəli gəlirdi.

"Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumilikdə büdcəsi qədər olmalıdır" deyən və qısa müddətdə bu sözünə əməl edən Prezident İlham Əliyev işğalçı, xarici ianələrdən asılı olan Ermənistanın qüdrətli iqtisadiyyata malik Azərbaycanla rəqabət aparmaq imkanında olmadığını bəyan edirdi: "Siyasi potensialımız, iqtisadi gücümüz, ordu potensialımız və beynəlxalq haqq-ədalət prinsipləri bizim mövqelərimizi gücləndirir və mən əminəm ki, bütün bu amillər, bizim fəal və hücüm siyasətimiz nəticədə torpaqlarımızın işğaldan azad olunmasına gətirib çıxaracaqdır".

Elə də oldu...

Azərbaycan Ordusu qısa vaxtda düşmənin keçilməz elan etdiyi, xüsusi möhkəmləndirilmiş 3 qat, bəzi yerlərdə 5 qat müdafiə sistemini darmadağın etdi, külli miqdarda hərbi texnikasını sıradan çıxardı, minlərlə əsgərini məhv etdi və sürətlə ərazilərimizi azad etməyə başladı.

Əməliyyatların mükəmməl hazırlanması, döyüşlərin peşəkar hərbçilər və güclü müasir hərbi texnika ilə aparılması düşməni şoka saldı. Belə bir mükəmməl taktika gözləməyən erməni terrorçuları əksər yerlərdə silah, texnikanı atıb qalmağa başladı...

Hazırda əməliyyatlar davam edir. Hər gün cəbhədən yeni qələbələr xəbəri gəlir.

> **A**zərbaycan sülhpərvər siyasəti nəticəsində dünya dövlətlərinin əməkdaşlıq etdiyi məkana çevrilib. Bu gün xalqımızın mənafeləri beynəlxalq aləmdə yüksək səviyyədə qorunur, ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur. Azərbaycanın artan imkanları, nüfuzu, dünya üçün vacib ölkəyə çevrilməsi mövqeyimizi daha da möhkəmləndirib.

## Qarabağın tarixi və mənəvi sahibləri qayıdır

Qarşı tərəfdə isə vəziyyət hər sahədə ağırdır. Düşmən həm siyasi-diplomatik, həm hərbi-döyüş, həm də informasiya-təbliğat müharibəsində uduzdu.

Üstəlik, əhalinin mənəvi-psixoloji vəziyyətində tamam antipod vəziyyətdir. Erməni əsgərlər cəbhədən kütləvi qaçır, mülki şəxslər isə işğaldan sonra köçüb gəldikləri Qarabağdan geriyə- Ermənistana qayıdır və açıq bəyan edirlər ki, "biz bilirdik ki, bu torpaqların sahibləri gec-tez qayıdacaqlar".

Azərbaycanda isə əhali kütləvi şəkildə orduya yazılmağa can atır, orduya və döyüş bölgəsinə yardımlar təşkil edir, vətən uğrunda əllirindən gələni edirlər. Belə bir situasiyada kimin qalib, kimin mıçöul olduğu əvvəldən məlumdur.

Göründüyü kimi, bölgədə yaranmış hərbi, siyasi, iqtisadi vəziyyət Ermənistanın məğlubiyyətini şərtləndirib. Azərbaycan artıq bütün cəbhələrdə düşməni dalana dirəyib. Bu isə, çox yaxın vaxtda bütün işğal edilmiş ərazilərimizin azad olunmasının başa çatacağını aydın göstərir.

Gec ya tez ədalət öz yerini tapmalı idi. Azərbaycan Prezidenti bunun qansız baş verməsi üçün çox çalışdı, sülh üçün bütün mümkün imkanlardan istifadə etdi, lakin Ermənistan bunun üçün heç bir əl yeri qoymadı.

İndi bütün dünya Azərbaycanın və qəhrəman Azərbaycan Ordusunun nəyə qadir olduğunu əyani surətdə görür. Peşəkar və mükəmməl hərbi əməliyyatlarla düşmənin çox güclü müdafiə sistemi sıradan çıxarılıb, azad olunan yaşayış məntəqələrinin və ərazilərin sayı sürətlə artır.

Qisa müddətdə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyinə artıq bütün dünya əmindir. Güclü dövlət, qətiyyətli lider, əzmkar xalq və qüdrətli ordu ölkəmizin taleyini həll edir. Bütün cəbhələrdə qələbələr ard-arda düzülür.

Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək, Azərbaycan dünyaya Günəş kimi doğur.

***Elçin Bayramlı***

ANALİZ

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

9 oktyabr

Son səhifə

## “Liverpul” 18 yaşlı qapıçı transfer etdi



***İngiltərənin “Liverpul” heyətinə yeni futbolçu cəlb edib. İngilis klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, Braziliya “Fluminense”sinin qapıçısı Marselo Pitaluqa ilə müqavilə bağlanılıb.***

18 yaşlı qolkiperlə imzalanan sözləşmənin detalları açıqlanmayıb. Bu transfer üçün “Liverpul”un qarşı tərəfə 750 min avro ödədiyi bildirilib. Qeyd edək ki, Marselo Pitaluqa 2019-cu ildə Braziliyanın U-17 komandası ilə dünya çempionu olub.

## Ronaldonun villası qarət olundu!



“Yuventus”un futbolçusu Kriştiano Ronaldonun evi qarət olunub. Qol.az “The Sun” nəşrinə istinadən xəbər verir ki, Portuqaliya və İspaniya yığmaları arasında yoldaşlıq oyunu zamanı naməlum şəxs Ronaldonun Madeyra şəhərindəki villasına daxil olub. O, təhlükəsizlik kameralarına düşüb. Hələlik oğurlanan əşyaların siyahısı və dəymiş zərərin miqdarı açıqlanmayıb. Lakin 35 yaşlı forvardın imzalı oyun forması da daxil olmaqla, şəxsi əşyaların götürüldüyü məlum olub.

Qeyd edək ki, Ronaldonun Madeyradakı mülkünün dəyəri 7 milyon funt sterlinqdir.

## Qusarda ağır yol qəzası olub: Sürücü həlak olub



Qusarda baş verən yol-nəqliyyat hadisəsi nəticəsində sürücü həlak olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 7-də saat 18 radələrində Qusar rayonunun Xurel kəndi ərazisində kənd sakini Muradxan Qurbanov idarə etdiyi “VAZ-21010” markalı avtomobili su arxına aşırıb. Nəticədə avtomobildəki sərnişin İlham Ağasiyev aldığı xəsarətlərdən hadisə yerində ölüb. Qusar Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## Quldurluq törədən şəxs saxlanılıb

Quldurluq törətməkdə şübhəli bilinən Samux rayon sakini saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Samux Rayon Polis Şöbəsinə müraciət edən Kolayır kənd sakini Ə.Paşayev oktyabrın 6-da idarə etdiyi “Mercedes” markalı avtomobilə sərnişin qismində əyləmiş bir nəfərin onu bıçaqla hədələyərək 100 manat pulunu almasını bildirib.



Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Lək kənd sakini R.Əliyev saxlanılıb. Samux Rayon Polis Şöbəsində faktla bağlı araşdırmalar aparılır.

## Badımcan - uzunömürlülük tərəvəzidir



Badımcan dünyanın bir çox ölkələrinin kulinariyasında fəal şəkildə istifadə olunur. Onlar bişirilir, qızardılır, xəmirin içinə qoyub bişirilir, pörtülür, qrildə bişirilir, marinada qoyulur, badımcan salatı və kürü hazırlamaq üçün istifadə olunur. Şərqdə badımcan uzun ömürlülük tərəvəzi adlanır. Tərkibindəki ürək fəaliyyətinə müsbət təsir göstərən kalium duzları sayəsində yaşlı insanlara və ürək-damar xəstəliklərindən əziyyət çəkənlərə badımcanın istifadəsi məsləhət görülür. Badımcandan hazırlanmış yeməklərin müntəzəm istifadəsi duz balansına xeyirli təsir edir. Buna görə də, maddələr mübadiləsinin pozulması, xüsusilə də podaqra ilə badımcan pəhrizinə riayət etmək tövsiyə olunur. Badımcan qaraciyər və böyrək, mədə-bağırsaq traktı xəstəliklərinə qarşı mübarizədə kömək edir. AZƏRTAC tibb saytlarına istinadla badımcanın orqanizm üçün faydasından xəbər verir.

Xolesterinin səviyyəsini aşağı salır. Badımcan, güclü sərbəst radikal təmizləyən xlorogen turşusu mənbəyidir. Bu turşu həmçinin virus, xərçəng və mikrob əleyhinə xüsusiyyətlərə malikdir.

Beynin sağlamlığını gücləndirir. Müəyyən edilib ki, badımcanın müntəzəm istifadəsi yaşlı insanlarda əqli pozuntusunun azaldılmasına kömək edir.

Xərçəngə qarşı mübarizə aparır. Badımcanda olan polifenolların antimikrob təsirlərə malik olduğu aşkar edilib. Antioksidantlar hüceyrələri sərbəst radikalların yaratdığı zərərlərdən qoruyur, bu da şiş böyüməsinin və xərçəng hüceyrələrinin işğalının qarşısını alır və eyni zamanda xərçəng hüceyrələrinin ölümünü təşviq edir. Diabetə nəzarət etməyə kömək edir. Badımcanda həll olunan karbohidratlar azdır, liflər isə çoxdur, bu da şəkərli diabet xəstələri üçün yaxşı qidadır. Tədqiqatlar badımcanın diabetin müalicəsində və nəzarətində rolunu dəstəkləyir.

## Uqandalı atlet dünya rekordunu yeniləyib



Uqandalı atlet Coşua Çepteqei İspaniyanın Valensiya şəhərində keçirilən turnirdə 10 min metr məsafəyə qaçış yarışlarında dünya rekordunu yeniləyib. Bu barədə TASS informasiya agentliyi məlumat yayıb. Xəbərdə deyilir ki, 24 yaşlı idmançı bu məsafəni 26 dəqiqə 11 saniyəyə qət edib. Əvvəlki dünya rekordu 2005-ci ildən efiopiyalı Kenenisa Bekele (26.17,53) məxsus idi. C.Çepteqei 2017-ci ildə dünya çempionatının gümüş, 2019-cu ildə qızıl medalını qazanıb.

## Dünyanın ən çox qazanan 43 yaşlı aktrisası



ABŞ-ın ”Forbes” jurnalı dünyanın ən çox qazanan aktrisalarının reytinqini dərc edib. APA-nın məlumatında deyilir ki, reytinq ”Nielsen”, ”Box Office Mojo” və IMDB-nin məlumatları əsasında hazırlanıb. Siyahının lideri bir ilə 43 mln. ABŞ dolları qazanan ”Modern Family” serialının ulduzu Sofiya Verqara olub. Onun ardınca Ancelina Coli (35,5 mln. dollar) və Qal Qadot (31,5 mln. dollar) yer alıb. Reytinqin ilk beşliyini Melissa Makkarti və Meril Strip tamamlayır. Siyahının ilk onluğuna Emili Blant, Nikol Kidman, Ellen Pompeo, Elizabet Moss və Viola Devis daxil olub.

Jurnal qeyd edir ki, ilk onluğa daxil olmuş aktrisaların ümumi ilik qazancı 254 mln. dollar təşkil edib. Qonorarların əksər hissəsi strimінq xidmətləri (onlayn yayım) və televiziyalardan əldə olunub. Yalnız Ancelina Coli illik gəlirinin çox hissəsini ənənəvi kinematoqrafdan əldə edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
*“Azərbaycan” nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**